

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

6 dekabr 2025-ci il, şənbə
№ 223 (7050)
Qiyməti 60 qəpik

## Soydaşlarımızın qayıdış hüququ təmin edilməlidir!



## Azərbaycan Prezidenti beynəlxalq konfrans iştirakçılarına müraciət etdi



Bax səh. 2

## III beynəlxalq konfrans

Qərbi azərbaycanlıların öz yurdlarına qayıdışı sülhün əsas şərtlərindəndir

Bax səh. 2

## Cənubi Qafqazın liderliyindən qlobal müstəviyə...

Bax səh. 4

## ATƏT regionu üçün nümunə...



Bax səh. 4

## “Ən böyük qlobal irəliləyiş”

Azərbaycan “StartupBlink” reytinqində Mərkəzi Asiya regionunda ən yüksək göstəriciyə nail olub

Bax səh. 3

## Müdafiə sahəsində əməkdaşlıq genişləndirilir



Bax səh. 3

## YAP Gənclər Birliyinin nümayəndə heyəti Gürcüstanda səfərdə olub

Bax səh. 4

## Azərbaycan beynəlxalq birliyin diqqət mərkəzində...

Bax səh. 5

## Sülh missiyasının 8-ci qələbəsi...



Bax səh. 7

## “Milli-mənəvi kimlik və müasir çağırışlar”

Bax səh. 6

## AXCP niyə bağlanmalıdır?

Bax səh. 6

## Ağappaq əbədi sükut

Bax səh. 7

# Soydaşlarımızın qayıdış hüququ təmin edilməlidir!

## Azərbaycan Prezidenti beynəlxalq konfrans iştirakçılarına müraciət etdi



**İndiki mərhələdə ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş Azərbaycan üçün əsas ümummilli ideyalardan biri soydaşlarımızın zamanında zorla çıxarıldıqları tarixi torpaqlarımıza - indiki Ermənistanın yerləşdiyi Qərbi Azərbaycana ləyaqətli şəkildə qayıdışına nail olmaqdır. Son illərdə bu istiqamətdə Qərbi Azərbaycan İcması (QAİ) ardıcıl iş aparır və artıq müəyyən mərhələ keçilib. Görülən işlərin davamı olaraq dekabrın 5-də Bakıda Qərbi Azərbaycan İcması tərəfindən "Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası - ədalətə, barışığa və sülhə aparan yol kimi" mövzusunda III beynəlxalq konfrans keçirilib. Prezident İlham Əliyev konfrans iştirakçılarına ünvanladığı müraciətində tarixi faktlara diqqət çəkərək ədalətin bərpasının zəruri olduğunu bildirib və bir sıra mühüm mesajlarını verib. Dövlətimizin başçısının müraciətini Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev oxuyub.**

### Xalqımız dəfələrlə deportasiyalar və soyqırımları ilə üz-üzə qalıb



Tarixi torpaqlarımızda Ermənistan adlanan dövlətin qurulması güc mərkəzlərinin imperialist maraqlarına xidmət edib. Baş verənlər, aşkarlanan faktlar dəhşət saçır. Prezident İlham Əliyevin müraciətində bildirdiyi kimi, qədim dövlətçilik və mədəniyyət tarixinə malik Azərbaycan xalqı son iki əsrdə dəfələrlə məhrumiyyətlər, deportasiyalar və soyqırımları ilə üz-üzə qalmış, ermənilərin Azərbaycanın əzəli torpaqlarına köçürülməsindən sonra - 1905-1907, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə azərbaycanlılara qarşı törədilən qırğınlar və qanunsuz köçürmələr nəticəsində yüz minlərlə soydaşımız öz doğma yurdunu tərk edərək Azərbaycana sığınmışdır.

Bu deportasiyalar və soyqırımları bizim tariximizin bir hissəsidir və gələcəkdə də belə faciələrlə üzləşməmək üçün tariximizi yaxşı öyrənməliyik. Beləliklə, bəzi ştrixlərə diqqət çəkmək yerinə düşər. Xatırlayaq: 1918-ci ildə yeni yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti (AXC) özünün ilk qərarlarından birində bizim tarixi şəhərimizi - İrəvanı Ermənistana faktiki olaraq hədiyyə edib. Bəziləri AXC-nin İrəvanın ermənilərə verilməsi ilə bağlı qərarının üstündən sükutla keçməyə çalışırlar. Ancaq yox! Bəli, AXC-nin yaradılması xalqımızın tarixi nailiyyətidir və dövlətçilik yolunda atılan çox mühüm bir addımdır. Biz bütövlükdə AXC-nin fəaliyyətini yüksək dəyərləndiririk. Bununla belə, gələcək naminə tariximizdəki qara səhifələri də unutmamalıyıq, səhvlərimizdən nəticə çıxartmalıyıq. Zamanında bir çoxları düşünürdülər ki, ermənilər İrəvana sahibləndikdən və tarixi Azərbaycan ərazisində öz dövlətlərini qurduqdan sonra daha dayanacaqlar, bir daha ərazi iddialarından çıxış etməyəcəklər. Lakin ermənilər İrəvana sahiblənməklə kifayətlənmədilər. 1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız olan Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Bu, xalqımıza qarşı növbəti cinayət idi. Bunun da səbəbləri və məqsədi tam aydın idi. Birincisi, erməni millətçiləri sovet hökumətində mühüm vəzifələrdə yerləşmişdilər və siyasi qərarlar verilməsinə təsir göstərmək imkanlarına malik idilər. Zəngəzurun Ermənistana verilməsi Azərbaycanı Naxçıvandan və Türkiyədən coğrafi nöqteyi-nəzərdən ayırmaq, bununla da eyni zamanda, Türk dünyasını parçalamaq üçün atılmış bir addım idi.

İrəvanın və Zəngəzurun Ermənistana verilməsi ilə Qərbi azərbaycanlıların faciələri bitmədi. Hamımız yaxşı bilirik ki, 1948-1953-cü illərdə xalqımız növbəti deportasiyaya məruz qalıb. Bu, keçmiş sovet hökumətinin Qərbi azərbaycanlılara və bütövlükdə Azərbaycan xalqına qarşı törətdiyi növbəti cinayəti idi.

Sonuncu deportasiyayadək indiki Ermənistan ərazisində 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdılar, 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edirdilər və bütövlükdə 300-dən çox şəhər və kənddə soydaşlarımız məskunlaşmışdılar . Onların hamısı cəmi 3 il ərzində yurd yerlərindən zorla çıxarıldı. Sonuncu kəndimiz Nüvədi 1991-ci ilin avqustunda deportasiyaya məruz qaldı. Ən acınacaqlı cəhətlərdən biri də ondan ibarətdir ki, Qərbi Azərbaycanda dağlıq zonada yaşamağa öyrəşmiş soydaşlarımızın yeni yaşayış ünvanları kimi bir qayda olaraq isti aran bölgələri seçilib ki, bu da adaptasiyanın çox ağır keçməsi ilə nəticələnib. Eyni zamanda, Qarabağda da xalqımıza qarşı cinayətlər törədilib.

### Zəngin maddi və qeyri-maddi mədəni irs nümunələrinin məhv edilməsi xalqımızın izini silmək məqsədi daşıyıb

İndiki Ermənistan ərazisində azərbaycanlılara məxsus mülkiyyətin mənimsənilməsi, maddi-mədəniyyət nümunələrinin ələ keçirilərək dağıdılması və özgəninkiləşdirilməsi mötəbər sənədlərlə sübuta yetirilən tarixi faktlardır. "Ermənistan tarixən Qərbi Azərbaycanda yaşamış azərbaycanlıların zəngin maddi və qeyri-maddi mədəni irsini, müqəddəs inanc yerlərini, qəbiristanlıqlarını öz ərazisindən Azərbaycan xalqının izlərini silmək məqsədilə zaman-zaman məhv etmişdir", - deyə Prezident İlham Əliyev bildirib.

Yuxarıda qeyd etdiyimiz deportasiyalardan əvvəlki mərhələlərdə indiki Ermənistan ərazisində də soydaşlarımız tərəfindən müxtəlif ünvanlarda çoxlu sayda mədəni irs nümunələri, o cümlədən ibadət ocaqları, məscidlər yaradılıb. Arxiv sənədlərinə əsasən 1888-ci ildə İrəvan quberniyasında 210 məscid, 1902-ci ilin məlumatına əsasən isə 310 məscid olub. Xüsusilə ermənilər tərəfindən tamamilə yer üzündən silinən İrəvan qalası 60-dək bürcü ilə arxitektura baxımından Şərqin, türk dünyasının mühüm mədəniyyət mərkəzlərindən biri kimi tanınır. Qaladakı Sərdar sarayı, Sərdar məscidi, XVII əsrin nadir memarlıq abidəsi olan Göy məscid səyyahları həmişə heyran qoymuşdur. Qalada daha yeddi məscid fəaliyyət göstərib.

Ermənistanda azərbaycanlılara məxsus tarixi izlərin məqsədli şəkildə yox edilməsi dövlət səviyyəsində sistemli şəkildə həyata keçirlən bir siyasətdir. "Deportasiya" sözü yalnız soydaşlarımızın qurub-yaratdıqları evlərdən çıxarılması və köçürülməsi anlamında qəbul edilməməlidir. Tarixi ərazilərimizdən soydaşlarımızın zorla çıxarılması ilə paralel şəkildə, həm də tarixi-mədəni irsimizə qəsd edilib. İrəvandakı Dəmirbulaq məscidi yer üzündən silinib, Göy məscid isə orijinal xüsusiyyətlərinin dəyişdirilməsi məqsədilə digər mənşəli abidə kimi "yenidən təmir edilib". Dağıdılmış abidələr arasında XVIII əsrin ikinci yarısında Qara Seyid tərəfindən İrəvanda tikilmiş Hacı Novruzəli bəy məscidi də var. Həmçinin İrəvanın Sərdar məscidi də sistemli dağıntıya məruz qalıb və 2014-cü ildə tamamilə məhv edilib. Siyahı kifayət qədər uzundur. Bütövlükdə 300-dən artıq məscid, ocaq, ziyarətgah, 500-dən artıq qəbiristanlıq yer üzündən silinib.



### Sülhə böyük töhfə olardı...

Qayıdış hüququ insan hüquqlarının təməl prinsiplərindən biridir. Müraciətdə vurğulandığı kimi, bu hüququn təmin edilməsi təkcə doğma yurda fiziki dönüş deyil, həm də toplumun mənəvi bütövlüyünün, mədəni irsinin və tarixi yaddaşının bərpası deməkdir.

Soydaşlarımızın qayıdış hüququ ilk növbədə tarixi ədalətə əsaslanır. Eyni zamanda, insanların qayıdış hüququ beynəlxalq konvensiyalarda da təsbit olunub. Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktda, Qaçqınların Statusuna dair Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıtmaq hüququ zamanında doğma yurd yerlərindən zorla qovulmuş azərbaycanlılara da şamil olunmalıdır. Burada beynəlxalq birliyin məsuliyyəti məsələsi də gündəmə gəlir. Dövlətimizin başçısı bildirib ki, ermənilərin azərbaycanlılara qarşı insanlıq əleyhinə cinayətlərinin beynəlxalq hüquq müstəvisində qiymətləndirilməsi üçün lazımi addımlar atılması və beynəlxalq ictimaiyyətin bu məsələdə bizə dəstəyi olduqca əhəmiyyətlidir.

Cari il avqustun 8-də Vaşinqtonda əldə olunan razılaşmalarla Cənubi Qafqaz regionu heç vaxt olmadığı qədər sülhə yaxınlaşıb. Qalıcı sülhə nail olmaqdan ötrü bütün fürsətlərdən istifadə edilməlidir. Soydaşlarımızın tarixi yurd yerlərinə ləyaqətli qayıdışının təmin edilməsi belə fürsətlərdən biridir. "İnanırıq ki, Qərbi Azərbaycan İcmasının sülhsevər üzvləri öz ata-baba yurdlarına qayıdacaq və xalqlarımız arasında mehriban qonşuluq münasibətləri yaranacaqdır", - deyə dövlətimizin başçısı vurğulayıb.

***Mübariz ABDULLAYEV***

# III beynəlxalq konfrans

## Qərbi azərbaycanlıların öz yurdlarına qayıdışı sülhün əsas şərtlərindəndir

Dekabrın 5-də Bakıda Qərbi Azərbaycan İcması tərəfindən "Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası - ədalətə, barışığa və sülhə aparan yol kimi" mövzusunda III beynəlxalq konfrans keçirilib. Əvvəlcə Qərbi Azərbaycan İcmasının fəaliyyəti ilə bağlı videoçarx nümayiş olunub.

Daha sonra Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub.

Konfransda indiki Ermənistan ərazisində yaşamış azərbaycanlılara məxsus mədəni irsin vəziyyəti, bu irsin qorunması və dirçəldilməsi, həmçinin qayıdış hüququnun beynəlxalq hüquq və mədəni irsin müdafiəsi kontekstində qiymətləndirilməsi müzakirə edilib.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərov çıxışında bildirib ki, İcma son 200 ildə Ermənistan ərazisindən mərhələlərlə qovulan milyonlarla insanı və onların varislərini birləşdirən ictimai təşkilatdır: "İcmanın fəaliyyətinin əsas xətti həmin insanların, xüsusilə də 1987-ci ildə başlayan Ermənistan-Azərbaycan münaqişəsinin ilk mərhələsində öz doğma yurdlarından amansız şəkildə qovulan 300 min nəfər qaçqının öz evlərinə dinc, təhlükəsiz və ləyaqətli şəkildə qayıdışını təmin etməkdir". Onun sözlərinə görə, bu, həm insan hüquqlarına, həm də beynəlxalq hüquqa əsaslanan haqlarının bərpasıdır. Ona görə də biz fəaliyyətimizdə beynəlxalq hüquqa söykənir, qayıdış hüququ ilə bağlı beynəlxalq sənədlərdə təsbit olunmuş prinsiplərin həyata keçirilməsini tələb edirik.

İcma rəhbəri deyib ki, dialoq qurulması istiqamətdə etdiyimiz çoxsaylı müraciətlər BMT-nin ali orqanlarının, Baş Assambleyanın və Təhlükəsizlik Şurasının rəsmi sənədləri kimi yayılıb: "Həmin sənədlərdə biz dünya ictimaiyyətini Ermənistan-Azərbaycan münaqişəsinin tarixi kökləri və mahiyyəti barədə məlumatlandıraraq bildirmişik ki, ermənilərin Qərbi Azərbaycanda soydaşlarımıza qarşı törətdikləri fərdi və kollektiv cinayətlərin tarixi 200 il əvvələ gedib çıxsa da, son 100 ildə bu cinayətlər daha da genişlənmiş və bütün hədləri aşıb". O qeyd edib ki, əvvəl 1905-ci ildə, sonra 1918-1921-ci illərdə, daha sonra 1948-1953-cü illərdə, ən sonda 1987-1991-ci illərdə xalqımıza qarşı saysız-hesabsız cinayətlər törədilib: "Təkcə sonuncu deportasiya zamanı - 1987-1991-ci illərdə Ermənistanda 200 nəfərdən çox dinc azərbaycanlı sakin etnik və dini zəmində ermənilər tərəfindən qətlə yetirilib, 400-dən artıq soydaşımız bədən xəsarəti alıb. 300-ə yaxın yaşayış məntəqəsindən qovulan azərbaycanlılara fərdi təsərrüfatlar və ictimai təsərrüfatlar üzrə on milyardlarla ABŞ dolları həcmində maddi ziyan vurulub. Yeraltı-yerüstü sərvətləri, tarixi-mədəni abidələrə vurulan ziyanı da bura əlavə etsək, bu rəqəm bir neçə dəfə artar. Mənəvi ziyanı isə heç bir məbləğlə əvəz etmək mümkün deyil. Lakin təəssüf ki, Ermənistan tərəfi bütün bu cinayətlərə görə nəinki hüquqi məsuliyyət daşımaq istəmir, üstəlik, ata-baba yurdundan qovulan insanların geriyə qayıdış hüququnu inkar edir".



Çıxış edən Türkiyə Böyük Millət Məclisinin üzvü, Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Şamil Ayrım deyib ki, Qərbi azərbaycanlıların geri dönüşü beynəlxalq insan hüquqlarının fundamental prinsiplərindən biridir. BMT-nin İnsan Hüquqları Ümumdünya Bəyannaməsinin 13-cü maddəsi hər bir insanın öz ölkəsinə qayıtmaq hüququnu açıq şəkildə təsbit edir. Lakin bu hüquq yalnız fiziki qayıdışı nəzərdə tutmur. Həqiqi geri dönüş insanın təkcə yurduna deyil, kimliyinə, yaddaşına, mədəniyyətinə və mənəvi irsinə qovuşması deməkdir. Onun sözlərinə görə, ermənilər tərəfindən zorla öz doğma torpaqlarından çıxarılan Qərbi azərbaycanlıların geri dönüşü, sadəcə, coğrafi hərəkət deyil, ədalətin bərpası, kimliyin qorunması və tarixi həqiqətin təsdiqi deməkdir: "Azərbaycan xalqının yüz illər boyu yaratdığı məscidlər, türbələr, qəbiristanlıqlar, məhəllələr, tarixi tikililər və əlyazmalar məhv edilib".

Qeyd edək ki, konfrans panel müzakirələrlə davam edib. Milli Məclisin deputatı, ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə "Qayıdış hüququ və mədəni irs: hüquqi və mənəvi əsaslar" mövzuusnda ilk panel müzakirəsi təşkil olunub. Müzakirələrdə İbn Haldun Universitetinin Heydər Əliyev adına Avrasiya Araşdırmalar Mərkəzinin direktoru, professor Yaşar Sarı bildirib ki, Qərbi azərbaycanlıların tarixdə bir neçə dəfə öz dədə-baba yurdlarından qovulması faktı məlumdur. Buna görə də onların qayıdış hüququ beynəlxalq hüququn əsas prinsipləri çərçivəsində təmin edilməlidir. Onun sözlərinə görə, mədəni ayrı-seçkiliyin aradan qaldırılması vacibdir və bu istiqamətdə beynəlxalq konvensiyalar mədəni irsin qorunmasına dəstək verməlidir: "Qərbi azərbaycanlılara qarşı baş vermiş ədalətsizliyin aradan qaldırılması məqsədilə mövcud beynəlxalq sənədlər onların qayıdış hüququnun tanınmasını və qorunmasını nəzərdə tutur. Bununla yanaşı, Azərbaycan və Ermənistan arasında imzalanan razılaşmalar da bu prosesə müsbət töhfə verə bilər".

Fransalı tarixçi Maxime Gauin isə bildirib ki, azərbaycanlılar hələ 1800-cü illərdə İrəvan və ətraf bölgələrdə yurdlarına bağlılıqları ilə seçilirdilər. Bu, onların mədəni və tarixi irsinin qorunmasında mühüm rol oynayıb. Onun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ərazilərində sosial və mədəni fəaliyyətlər inkişaf etdirilib. Azərbaycan xalqının hüquqları həm yerli, həm də regional səviyyədə qorunub. "XX əsrin əvvəllərində azərbaycanlılar öz mədəniyyətlərini, tarixlərini və ərazilərini qorumaq üçün mübarizələr aparıblar. Bu dövrdə mədəniyyətin qorunması və ictimai təşkilatlanma əhəmiyyətli rol oynayırdı. Bu, tarix boyunca azərbaycanlıların mədəni, tarixi və siyasi mübarizəsində, onların milli kimliyinin qorunmasında həlledici olub", - deyə fransız tarixçi vurğulayıb.

İlk paneldə Harvard Universitetinin tədqiqat direktoru Mark Nathan Kramer və İspaniyanın Panavropa təşkilatını təmsil edən professor Carlos Uriarte də çıxış edib. Natiqlər beynəlxalq təcrübə fonunda qayıdış hüququnun dövlətlərarası münasibətlərdəki yerini və Ermənistanın üzərinə düşən humanitar öhdəliklər barədə fikirlərini bildiriblər.

"Maddi irs: qayıdışın fiziki təməllərinin qorunması" mövzusunda panel müzakirəsi isə Böyük Britaniyadan olan ekspert Klaus-Peter Ralf Juergensun moderatorluğu ilə keçirilib. Paneldə Pakistan Ali Məhkəməsinin vəkili Muhammad Sohail Sajid, İtaliya-Azərbaycan Assosiasiyasının vitse-prezidenti Carlo Marino, İndoneziya İƏT Gənclər Təşkilatının prezidenti Astrid Nadya Rizqita və amerikalı professor Michael Martin Gunter Ermənistan ərazisində azərbaycanlıların mədəni irsinə qarşı aparılmış dağıdıcı fəaliyyətin hüquqi qiymətləndirilməsi və bərpa imkanları barədə fikirlərini bölüşüblər.



Tədbir çərçivəsində digər panel müzakirələri də təşkil olunub.

Qeyd edək ki, beynəlxalq konfransda 60-dan çox ölkədən 100-dən artıq xarici qonaq və yerli ekspertlər iştirak edib.

***N.BAYRAMLI***

# Müdafiə sahəsində əməkdaşlıq genişləndirilir

## Böyük Britaniya - Azərbaycan münasibətləri yeni mərhələdə

Azərbaycanın səyi ilə Cənubi Qafqazda formalaşdırılan sülh mühiti bütövlükdə mühüm bir coğrafiyanın təhlükəsizlik platformasını yenidən müəyyənləşdirir. Artıq qlobal güclər yaranan təhlükəsizlik arxitekturasının güclənməsi istiqamətində Bakı ilə olan münasibətlərini daha da intensivləşdirir. Qeyd edilməlidir ki, regionda ən mühüm tərəfdaşlıq istiqamətlərindən biri Azərbaycanın Böyük Britaniya ilə qurduğu geniş müdafiə əməkdaşlığıdır. Bu əməkdaşlıq təkcə iki ölkə arasındakı dostluq münasibətlərinin ifadəsi deyil, həm də yeni təhlükəsizlik arxitekturasında qarşılıqlı maraqların kəsişmə nöqtəsidir.

Azərbaycan ilə Böyük Britaniya arasında hərbi əməkdaşlığın təməli 1990-cı illərin ortalarında qoyulsa da, əlaqələrin real dinamika qazanması XXI əsrin ilk onilliyindən sonra baş verib. Böyük Britaniya Azərbaycanın müstəqilliyini tanıyan ilk Qərb dövlətlərindən biri olmaqla yanaşı, ölkənin təhlükəsizlik sahəsində də dəstək göstərən tərəfdaş kimi çıxış edib. Xüsusilə NATO ilə tərəfdaşlıq proqramları çərçivəsində aparılan təlimlər, hərbi hazırlıq və müdafiə planlaşdırılması sahəsində Britaniyanın verdiyi töhfə Azərbaycanın müdafiə sisteminin modernləşdirilməsində əhəmiyyətli rol oynayıb.

### Böyük Britaniyanın nümayəndə heyəti Azərbaycanda...

Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 4-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının müdafiə üzrə dövlət naziri Lord Vernon Koakeri qəbul edib. Azərbaycan Prezidenti ilə görüşdən məmnunluğunu bildirən qonaq ölkələrimiz arasında dostluq və etimada əsaslanan münasibətləri qeyd edərək əlaqələrimizin strateji tərəfdaşlıq müstəvisində inkişaf etdirilməsində maraqlı olduqlarını vurğulayıb.

İkitərəfli münasibətlərimizin zəngin tarixinin olduğunu deyən dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın enerji sektorundan başladığını və daha sonra bir çox sahələri əhatə etdiyini vurğulayıb. Prezident İlham Əliyev ticarət, investisiya və digər sahələrdə əməkdaşlığı daha da genişləndirmək üçün yaxşı imkanların olduğunu deyib. Dövlətimizin başçısı hazırda ölkələrimiz arasında müdafiə sənayesi sahəsində əməkdaşlıqla bağlı yeni səhifənin açılmasına toxunaraq, bunu qarşılıqlı etimadın göstəricisi kimi qiymətləndirib. Qonaq Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyinin irəli aparılması istiqamətində bu ilin avqustunda Vaşinqtonda əldə edilmiş nəticələr münasibətilə dövlətimizin başçısını təbrik edib. Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirərək, bütün bunların tarixi əhəmiyyət daşıdığını vurğulayıb və bu məsələdə ABŞ Prezidenti Donald Trampın xüsusi roluna toxunub.

Qeyd edək ki, Lord Vernon Koakerin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanın müdafiə nazirliyində də olub. Müdafiə naziri Zakir Həsənovla görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında hərbi sahədə əlaqələrin xüsusi əhəmiyyət daşıdığı və bunun hər iki tərəfin ordusunun inkişafında müsbət rol oynadığı bildirilib, ötən il ölkəmizdə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hərbi Attaşelik Aparatının təsis edilməsinin əhəmiyyəti vurğulanıb. Səfər çərçivəsində qonaqlar, həmçinin "Zabit ixtisas hazırlığı" kursunun gənc zabitlərinin iştirakı ilə keçirilən "Təlimatçı hazırlığı" kursunun növbəti buraxılış mərasimində iştirak ediblər.



### Qarşılıqlı əlaqələr güclənir...

Qeyd edilməlidir ki, iki ölkə arasında müdafiə sahəsində institusional tərəfdaşlıq mövcuddur. Bu əməkdaşlıq fərqli istiqamətlər üzrə inkişaf etdirilir. Müdafiə strukturları arasında mütəmadi keçirilən dialoqlar hər iki ölkənin təhlükəsizlik gündəliyini uzlaşdırmaq baxımından mühüm platforma yaradır. Bu dialoqlar çərçivəsində müdafiə planlaşdırılması, ordunun idarə olunması, hərbi təhsil, kadr hazırlığı kimi mövzular üzrə təcrübə mübadiləsi həyata keçirilir. Əlaqələr ildən-ilə daha da möhkəmlənir. Bu ilin oktyabrında Azərbaycan və Böyük Britaniya müdafiə nazirlikləri arasında 2026/27-ci illər üçün İkitərəfli (Bilateral) Əməkdaşlıq Planı imzalanıb. Artıq uzhun illərdir ki, bu formatda hərbi əməkdaşlıq planları həyata keçirilir. Bundan başqa, iki ölkənin müdafiə nazirlikləri arasında hərbi-əməkdaşlığın cari vəziyyətini, perspektivlərini, sülhməramlı əməliyyatlar, minaların təmizlənməsi və digər sahələri müzakirə etmək üçün vacib platformalar mövcuddur.

2021-ci ildə Azərbaycanın Müdafiə Nazirliyi rəhbərliyi və Britaniya səfiri arasında təhlükəsizlik, müdafiə-texniki əməkdaşlıq, hərbi təhsil və təlim kurslarının genişləndirilməsi haqqında danışıqlar aparılıb. Bu, iki ölkənin müdafiə strukturları arasında bağlanmış müqavilə/razılaşmalar və əməkdaşlıq çərçivəsində inkişaf etdirilir.

Paralel olaraq Britaniyanın Azərbaycandakı müdafiə attaşeliyi fəaliyyətə başlayıb ki, bu da iki ölkənin qarşılıqlı hərbi-diplmatik və koordinator mexanizmi qurduğunu göstərir.

### Minatəmizləmə sahəsində əməkdaşlıq...

İki ölkə arasında müdffiə və təhlükəsizlik predmeti üzrə mühüm əlaqələrdən biri də minaların təmizlənməsi istiqamətindədir. Qeyd edək ki, 2021-ci ildə Böyük Britaniya 500 000 funt sterlinq ayıraraq işğaldan azad edilmiş ərazilərdə mina təmizləməsinə yardım göstərib. Eyni zamanda, 2022-ci ilin iyununda da bu istiqamətdə əlavə 500 000 funt sterlinq ayrılıb. Bu vəsaitlər insan həyatı üçün təhlükəli olan minaların təmizlənməsi, sahə monitorinqi, mütəxəssis hazırlığı və texniki-təşkilati dəstəyi təmin etməyə yönəldilib.

2025-ci ilin aprelində ANAMA ilə MAG (Böyük Britaniyanın minatəmizləmə QHT-si) arasında memorandum imzalanıb. Bu memorandum çərçivəsində MAG-in Azərbaycan üçün "sahə supervayzerləri" hazırlamaq üzrə təlimlər keçirməsi, həmçinin minatəmizləmə prosesinə məsləhət xidmətləri təqdim etməsi nəzərdə tutulub. Bu, birbaşa Azərbaycanda azad edilmiş ərazilərdə beynəlxalq, QHT əsaslı dəstək mexanizminin yaradılması deməkdir. Bu əməkdaşlıq ANAMA-nın milli potenisalını gücləndirməyə, beynəlxalq standartlara uyğun minatəmizləmə bacarıqları formalaşdırmağa hesablanıb.

Eyni zamanda, 2023-2025-ci illərdə ANAMA rəhbərliyi Britaniyanın Azərbaycandakı səfiri ilə bir neçə görüş keçirib. Bu görüşlərdə humanitar minatəmizləmə əməliyyatları, beynəlxalq təşkilatların iştirakı və gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub. Beləliklə, əlaqələr sadəcə maliyyə yardımından ibarət olmayıb - rəsmi, uzunmüddətli əməkdaşlıq platforması da formalaşdırılıb.

Birləşmiş Krallığın parlamentində də bu məsələ gündəmə gətirilib: Azərbaycanın rəsmi nümayəndələri və ANAMA nümayəndələrinin iştirakı ilə "Mina Fəaliyyəti və Mina Qurbanlarına Yardım" mövzulu tədbir keçirilib. Britaniya tərəfi Azərbaycan nümunəsini minalardan təmizləmə təcrübəsində dünya üçün nümunə göstərib. Vurğulanmalıdır ki, gələcəkdə bu əməkdaşlığın genişləndiriləcəyi, minatəmizləmə ilə bərabər bərpa, infrastruktur, icmaların yenidən qurulması kimi sahələrdə Britaniyanın rolunun artacağı da proqnozlaşdırılır. Bu baxımdan, bölgənin sülh və təhlükəsizliklə bərpası üçün Britaniyanın dəstəyi strateji əhəmiyyət daşıyır. Çünki Azərbaycan ilə Böyük Britaniya arasında hərbi əməkdaşlıq standart təhlükəsizlik dialoqu deyil, qarşılıqlı strateji maraqlara söykənən uzunmüddətli tərəfdaşlıq modelidir. Bu əməkdaşlıq regional sabitlik, enerji təhlükəsizliyi, dəniz müdafiəsi, kadr hazırlığı, terrorizmə qarşı mübarizə və post-konflikt mərhələsinin idarə olunması istiqamətlərində əsas rol oynayır.

*P.İSMAYILOV*

# Cənubi Qafqazın liderliyindən qlobal müstəviyə ...

## Almaniya kansleri Bakıya zəng edib




## Avropa-Azərbaycan münasibətlərinin yeni mərhələsi

Son illər beynəlxalq münasibətlər sistemində müşahidə olunan dərin siyasi transformasiyalar, iqtisadi güc mərkəzlərinin dəyişməsi və təhlükəsizlik arxitekturasının yenilənməsi qlobal mühitdə yeni reallıqlar doğurub. Azərabycanın timsalında yeni regional oyunçuların formalaşdırdığı yeni situasiyalar beynəlxalq aləmin diqqətini cəlb edib. Xüsusilə 2020-ci ildə əldə olunan Qələbə həm regionun siyasi xəritəsini, həm də Cənubi Qafqazda yeni güc balansını formalaşdırıb. Bu reallıq təkcə regional ölçüdə deyil, qlobal miqyasda da Bakının nüfuzunun artmasına təsir göstərib - bu yüksəliş Avropanın Azərbaycana diqqətini yeni mərhələyə daşıyır. Artıq Bakı ilə Avropa İttifaqı institutları, eləcə də ayrı-ayrı Avropa ölkələri arasında dialoq təkcə cari əməkdaşlıq çərçivəsində deyil, strateji perspektivlər kontekstində aparılır. Yeri gəlmişkən, dekabrın 4-də Almaniya Federativ Respublikasının Kansleri Fridrix Merts Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Fridrix Merts, ilk növbədə, Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə olunmuş nailiyyətlər münasibətilə təbriklərini çatdırıb. Kansler Almaniyanın regionda sabitliyi dəstəklədiyini vurğulayıb. Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Azərbaycanın regional sülh təşəbbüslərinin müəllifi olduğunu qeyd edib. Prezident İlham Əliyev ölkəmizin regionda davamlı sülhün təmin olunması və möhkəmləndirilməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcəyini bildirib. Telefon danışığı zamanı Azərbaycanla Almaniya arasında ikitərəfli münasibətlərin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Kansler Fridrix Merts dövlətimizin başçısını Almaniyaya səfərə dəvət edib. Dəvəti məmnunluqla qəbul edən Prezident İlham Əliyev öz növbəsində Almaniya Kanslerini Azərbaycana səfərə dəvət edib. Fridrix Merts də dəvəti məmnunluqla qəbul edib.

**Yeni sülh arxitekturası: Bakı Avrasiyanın yeni təhlükəsizlik sistemini formalaşdırır...**

Qeyd edildiyi kimi, Bakının Cənubi Qafqazda formalaşdırdığ yeni sülh arxitekturası ümumi Avrasiyanın yeni inkişaf mərhələsini yaradıb. Azərbaycanın diplomatik çevikliyi, iqtisadi gücünü diversifikasiya etməsi və ən əsası, etibarlı tərəfdaş imicini daha da möhkəmləndirməsi Avropa üçün təhlükəsizlik, enerji təminatı, logistika, Şərq-Qərb nəqliyyat xəttinin sabitliyi, yeni yaşıl enerji transformasiyası kimi prioritet məsələlərdə yeni münasibətlər sistemi yaratmağa stimul verir. Bu məsələlərin hər birində Azərbaycan özünü sabit, öhdəliklərə sadiq və çevik tərəfdaş kimi təsdiqləyib. Bu gün Avropa siyasi dairələrində Bakı artıq regionun lideri, Qafqazın sabitlik təminatçısı, Avrasiyanın enerji və nəqliyyat xəritəsində mərkəzi oyunçu kimi tanınır. Avropadan Bakıya edilən diplomatik müraciətlər, yüksək səviyyəli təmaslar, əməkdaşlıq təklifləri, enerji dialoqları və siyasi məsləhətləşmələr isə daha da intensivləşib - gələcək perspektivdə bu dinamikanın daha da güclənəcəyi şübhəsizdir. Bakı həm coğrafi mövqeyi, həm diplomatik xətti, həm də iqtisadi sabitliyi ilə Avropanın yeni strateji xəttinin təbii tərəfdaşına çevrilib.

**Bakı-Berlin münasibətləri: dinamizm, reallıqlar, perspektivlər...**

Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərində mühüm bir xətt kimi keçən Bakı - Berlin münasibətləri də diqqətçəkicidir. Qeyd edək ki, 2025-ci ilin yanvar-oktyabr aylarında Azərbaycan və Almaniya arasında ticarət dövriyyəsi 1 milyard 236 milyon 804 min dollar dəyərində olub. Hesabat dövründə Azərbaycandan Almaniyaya 535 milyon 414 min dollarlıq mal ixrac edilib, bu ölkədən idxal isə 701 milyon 390 min dollar dəyərində olub. Qeyd edək ki, Azərbaycanın Almaniya ilə ticarət dövriyyəsinin ümumi dövriyyədəki payı 3.03 faiz təşkil edir.

Bu ilin oktyabrın 1-nə olan məlumata görə, Azərbaycanda 199 Almaniya şirkəti fəaliyyət göstərir. İki ölkə arasında hüquqi baza bu gün təxminən 80 sazişi əhatə edir. Dövlətlər arasında davamlı biznes dialoqu, beynəlxalq tədbirlərdə birgə iştirak və prioritet sektorlarda bilik mübadiləsinin təşkil etdiyi birgə "yol xəritəsi" həyata keçirir. 1995-ci ildən 2024-cü ilə qədər Almaniya investisiyalarının həcmi 900 milyon ABŞ dollarını ötüb ki, bunun da təxminən 94 faizi qeyri-neft sektorunun payına düşüb. Bu dövrdə Azərbaycanın Almaniyaya investisiyaları 600 milyon ABŞ dollarından çox olub.

Qarşılıqlı əlaqələr də yüksək səviyyədədir. Bu ilin mayında Azərabycan Prezidenti İlham Əliyev Fridrix Mertsə Almaniyanın yeni Federal Kansleri seçilməsi münasibətilə məktub ünvanlayıb. Məktubda Azərbaycan-Almaniya əlaqələrinin geniş gündəliyə malik olması, ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin bütün istiqamətlər, xüsusilə də iqtisadiyyat, ticarət, energetika, o cümlədən alternativ və bərpaolunan enerji, humanitar və digər sahələr üzrə inkişafına böyük əhəmiyyət verildiyi vurğulanıb. Bu ilin aprelində bakıya səfər edən Almaniya Prezidenti Frank-Valter Ştaynmayer ilə Prezident İlham Əliyev arasında mühüm danışıqlar aparılıb. Azərbaycanın dövlət başçısı ötən ilin apredində Berlində səfərdə olub və səfər çərçivəsində keçirilən görüşlər ikitərəli əlaqlərin inkişafına yeni rəng qatıb.

**Yeni əlaqələr formatı: Qərb Azərbaycanı mühüm tərəfdaş sayır**

Vurğulandığı kimi, bütövlükdə Avropa ilə Azərbaycan arasında diplomatik əlaqələr uzun illər müxtəlif mərhələlərdən keçib. Vaxtilə Avropa Parlamentinin və bəzi Qərb institutlarının ölkəmizə qarşı qərəzli mövqeləri, xüsusən Ermənistan-Azərbaycan münaqişəsi dövründə birtərəfli yanaşmaları əməkdaşlıqda müəyyən gərginliklər yaradırdı. Lakin regionda reallıqların dəyişməsi, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi və Cənubi Qafqazda tamamilə yeni geosiyasi konfiqurasiyanın formalaşması Avropanın mövqeyində də ciddi transformasiya yaratdı. Bu gün Avropa artıq təkcə müşahidəçi yox, regionda sabitlik və sülh prosesinin formalaşmasında Bakının rolunu tanıyan tərəfdaş kimi çıxış edir. Bir sıra Avropa ölkələrinin rəhbərlərinin ard-arda Bakıya səfərləri, yüksək səviyyəli siyasi dialoq, təhlükəsizlik məsələlərində əməkdaşlıq təklifləri göstərir ki, Avropa reallıqlarla hesablaşmağa başlayıb. Azərbaycan regionda sülhün, kommunikasiyaların açılmasının, iqtisadi inteqrasiyanın aparıcı təşəbbüskarına çevrilib və Avropa bunu açıq şəkildə qəbul edir. Artıq Avropanın aparıcı institutları - Avropa İttifaqı Şurası, Avropa Komissiyası və başqa strukturlar Azərbaycanın mövqeyini nəzərə alan daha praqmatik xətt yürütməyə çalışırlar. Avropa ölkələri Azərbaycanla yeni hərbi-siyasi dialoq formatları, iqtisadi layihələr, enerji təhlükəsizliyi proqramları çərçivəsində əməkdaşlığı dərinləşdirməkdə maraqlıdır. Bu isə diplomatik əlaqələrin keyfiyyətində tamamilə yeni mərhələ yaradır.

**Enerji əməkdaşlığı: Bakı Avropanın enerji xəritəsini formalaşdırır**

Azərbaycan-Avropa münasibətlərinin ən güclü sütunlarından biri enerji əməkdaşlığıdır. Xüsusilə son 5 ildə Avropada enerji təhlükəsizliyi məsələsi ən strateji prioritetlərdən birinə çevrilib. Rusiya-Ukrayna müharibəsinin yaratdığı enerji böhranı Avropanı yeni mənbələr axtarmağa məcbur etdi. Bu vəziyyətdə Azərbaycanın rolu daha da artdı. Bakı təkcə ənənəvi qaz təchizatçısı kimi yox, həm də Qərbin enerji şaxələndirmə strategiyasının mərkəzi elementinə çevrilib. Cənub Qaz Dəhlizi layihəsi Avropanın enerji xəritəsində dönüş nöqtəsi oldu. Bu dəhliz Azərbaycan qazını Avropaya çatdırmaqla yanaşı həm də Qitənin enerji təhlükəsizliyi konsepsiyasının yeni bir atlasını formalaşdırdı. Bu gün Avropa ölkələrinin əksəriyyətinin enerji siyasətində Azərbaycanın payı fasiləsiz artır.

Yeni mərhələdə isə qarşıda daha geniş perspektivlər durur. Azərbaycan Avropanın yaşıl enerji keçidinə töhfə vermək üçün bərpa olunan enerji layihələrini genişləndirir. Xəzər dənizində qurulacaq külək enerjisi stansiyaları, Qarabağ və Şərqi Zəngəzurda formalaşdırılan "yaşıl enerji" zonası, həmçinin Azərbaycan-Gürcüstan-Rumıniya-Macarıstan elektrik xətti layihəsi Avropanın gələcək enerji xəritəsində Bakını daha da vacib oyunçuya çevirir. Bu əməkdaşlıq qarşılıqlı siyasi etimada əsaslanır. Avropa yaxşı bilir ki, Azərbaycan öz öhdəliklərini ardıcıl şəkildə yerinə yetirir, razılaşdırılmış enerji həcmlərini vaxtında təmin edir və enerji təchizatında heç vaxt problem yaratmır. Avropanın enerji agentlikləri dəfələrlə bildiriblər ki, Azərbaycanın sabitliyi və siyasi iradəsi olmadan Avropanın enerji təhlükəsizliyindən danışmaq mümkün deyil.

**Zəngəzur dəhlizi (TRIPP) faktoru: Şərq-qərb logistikasının yeni trendi...**

Azərbaycanın köhnə qitə ilə münasibətlərində Zəngəzur dəhlizi (TRIPP) yeni bir trendə çevrilir. Bu dəhliz regional nəqliyyat layihəsi olmaqla yanaşı, Avrasiyanın yeni iqtisadi xəritəsini formalaşdıracaq strateji koridor kimi qiymətləndirilir. Dəhliz açılması Avropanın iqtisadi strategiyasına ciddi təsir göstərəcək. Nəzərə alsaq ki, son 3 ildə Avropanın siyasi-iqtisadi vəziyyətində əvvəlki dövrlərlə müqayisədə geriləmələr müşahidə olunur, yeni inkişaf impulsun formalaşmasında Zəngəzur dəhlizi (TRIPP) əsaslı rol oynaya bilər. Dəhliz Avropaya Mərkəzi Asiya bazarlarına sürətli çıxış, Çin ilə ticarət marşrutunun qısalması, Yaxın Şərqə logistik inteqrasiyanın möhkəmlənməsi kimi imkanlar açır.

Azərbaycan və Türkiyənin bu layihədə aparıcı mövqeyi Avropa üçün çox önəmlidir. Çünki Avropa yaxşı anlayır ki, yeni geoiqtisadi dövrün açarı məhz türk dünyasının ortaq logistik şəbəkəsindən keçir. Türk Dövlətləri Təşkilatı sürətlə güclənir, Birlik daxilində iqtisadi və nəqliyyat əlaqələri genişlənir və bu proses tədricən Avropanın da maraq dairəsinə çevrilir.

Avropa üçün Zəngəzur dəhlizi (TRIPP) həm də siyasi əhəmiyyət daşıyır. Çünki bu dəhliz Cənubi Qafqazda sabitliyi möhkəmləndirir. Avropa regionda yaranan dinamikanın bir parçasına çevrilməyə çalışır və bunun üçün Bakıya ehtiyac duyur. Bütün bunlar Avropanın Azərbaycanla əməkdaşlığı yeni mərhələyə daşımaq niyyətini daha da gücləndirir.

**Qafqazın mərkəzindən Avropanın gündəminə...**

Mövcud geosiyasi reallıqlar bir daha göstərir ki, Azərbaycan artıq təkcə regional aktor deyil, Avropa üçün strateji əhəmiyyət daşıyan tərəfdaşa çevrilib. Siyasi-iqtisadi dialoqun intensivləşməsi, enerji əməkdaşlığının genişlənməsi, nəqliyyat-logistika layihələrində Bakının aparıcı rolu Azərbaycanın beynəlxalq statusunu yeni mərhələyə yüksəldib. Regionda sülh prosesinin təşəbbüskarı, Şərq-Qərb nəqliyyat dəhlizinin mərkəzi, Avropanın enerji təhlükəsizliyinin dayağı kimi Bakı Avropanın strateji xəritəsində xüsusi yer tutur. Bu gün Avropadan Bakıya artan müraciətlər, intensivləşən danışıqlar və genişlənən strateji əməkdaşlıq xətti təsdiq edir ki, Azərbaycan artıq qlobal proseslərin mərkəzində dayanan aktordur. Köhnə qitə də bu reallığı qəbul edir.

*Pərviz SADAYOĞLU*

# ATƏT regionu üçün nümunə...

## Təşkilatın Nazirlər Şurasının iclasında Ermənistan-Azərbaycan münaqişəsinin həlli ən mühüm hadisə kimi dəyərləndirilib

Azərbaycan beynəlxalq platformalarda fəal təmsil olunur. Bu baxımdan, ölkəmiz ATƏT-in tədbirlərində də aktiv iştirak edir. 4-5 dekabr tarixlərində Vyana şəhərində keçirilən ATƏT-in Nazirlər Şurasının 32-ci iclasında ölkəmiz xarici işlər naziri Ceyhun Bayramovun başçılıq etdiyi nümayəndə heyəti ilə təmsil olunub. Finlandiyanın xarici işlər naziri və ATƏT-in fəaliyyətdə olan sədri Elina Valtonenin dəvəti ilə keçirilən bu tədbirdə təşkilatın 57 iştirakçı dövlətinin və əməkdaşlıq üzrə 11 tərəfdaş ölkənin xarici işlər nazirləri iştirak edib. Rəsmi məlumata görə, dekabrın 4-5-də keçirilən iclasların təşkilata bu il sədrlik edən Finlandiyada deyil, Avstriyada baş tutmasına dair qərar iştirakçı dövlətlərin və ATƏT Katibliyinin səfərlərlə bağlı yükünün azaldılmasına, həmçinin tədbirin ətraf mühitə təsirinin minimuma endirilməsinə yönəlmiş öhdəliyi əks etdirir. ATƏT-in ali qərarverici orqanı olan Nazirlər Şurası xarici işlər nazirlərinə ATƏT məkanında təhlükəsizlik vəziyyətini nəzərdən keçirmək, aktual məsələləri müzakirə etmək, həmçinin təşkilatın fəaliyyət sahələri üzrə gördüyü işləri qiymətləndirmək imkanı təqdim edib.

### Ceyhun Bayramov: Regionda sülh de-fakto bərqərar olub



Tədbirdə çıxış edən Azərbaycanın XİN başçısı Ceyhun Bayramov bildirib ki, Nazirlər Şurasının iclası yenidən ATƏT məkanında davam edən təhlükəsizlik böhranı fonunda keçirilir. Onun sözlərinə görə, Helsinki Yekun Aktının imzalanmasının 50-ci ildönümü təntənə ilə qeyd edilməli olsa da, təəssüf ki, bu, mümkün deyil. Bu, əslində daha çox keçmiş səhvlərdən dərs çıxarmaq və Yekun Aktın mətninə və mahiyyətinə yenidən sadiqliyimizi təsdiqləmək üçün kollektiv iradəmizi səfərbər etməyə dərin ehtiyacın olduğuna dair bir xatırlatmadır. Bu baxımdan, xüsusən dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına hörmət kimi Yekun Aktda təsbit edilmiş prinsiplərin davamlı aktuallığını vurğulayırıq. Azərbaycanın ağrılı təcrübəsi göstərir ki, bu prinsiplər hamıya bərabər, ardıcıl, ayrı-seçkilik və ikili standartlar olmadan tətbiq edilməlidir.

C.Bayramov qeyd edib ki, ötən ilin dekabr ayından etibarən Azərbaycan və Ermənistan arasında post-münaqişə dövründə normallaşma prosesində əhəmiyyətli tərəqqi əldə edilib və cari ilin 8 avqust tarixində keçirilmiş tarixi Vaşinqton Sülh Sammiti ilə ən yüksək səviyyəyə çatıb: “Sözügedən sammit nəticəsində şahid qismində ABŞ Prezidenti Donald Tramp tərəfindən imzalanmaqla Azərbaycan və Ermənistan ölkə başçıları arasında Birgə Bəyannamə qəbul edilib. Tərəflər münaqişənin artıq keçmişdə qaldığını, ona heç bir şəkildə geri dönməyəcəklərini, mövcud reallığa əsaslanaraq, mehriban qonşuluq münasibətləri qurmağa başlayacaqlarını təsdiqləyiblər. Sammit çərçivəsində mən və erməni həmkarım cari ilin mart ayında yekunlaşan ikitərəfli danışıqların davamı olaraq, Azərbaycan, Ermənistan və ABŞ liderlərinin iştirakı ilə “Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş” layihəsini parafladıq. Bundan əlavə, erməni həmkarımla birlikdə, 2020-ci ildə münaqişənin həllindən sonra həmin mexanizmlərə artıq ehtiyac qalmadığına dair qarşılıqlı anlayışın göstəricisi qismində, ölkələrimiz arasında münaqişənin nəticələrinin aradan qaldırılması üçün vaxtilə yaradılmış ATƏT-in Minsk Prosesi və əlaqədar strukturların bağlanması ilə bağlı birgə müraciəti imzaladıq. Nazirlər Şurasının müvafiq qərarının operativ qəbuluna görə Finlandiya sədrliyinə, ATƏT Baş katibinə, ATƏT Katibliyinə və iştirakçı dövlətlərə təşəkkür edirəm”.

Nazir diqqətə çatdırıb ki, nəticə etibarilə, regionda sülh de-fakto bərqərar olub. Onun sözlərinə görə, bu gün qeyri-sabit ATƏT regionundan fərqli olaraq, Azərbaycan və Ermənistan ən dinc və sabit dövrü yaşayır. Hər iki tərəf hökumət, parlament və vətəndaş cəmiyyəti səviyyələrində müxtəlif ölçülər üzrə konkret tədbirlərin həyata keçirilməsi istiqamətində irəliləyir. Sülh prosesinə əlavə təkan vermək məqsədilə, Azərbaycan xoşməramlı jest olaraq, Ermənistana münasibətdə məhsulların tranzit məhdudiyyətini birtərəfli qaydada aradan qaldırıb.

### Ermənistandan siyasi iradə və məsuliyyət gözləyirik

Azərbaycan tərəfindən uzun illər ərzində təşviq edildiyi kimi, bu nailiyyətlər aydın şəkildə nümayiş etdirir ki, birbaşa ikitərəfli danışıqlar irəliyə aparan ən yaxşı yoldur. Azərbaycan sülh gündəliyinin təşəbbüskarı kimi bu yola sadiqdir və Ermənistan tərəfindən də qarşılıqlı siyasi iradə və məsuliyyəti gözləyir. “Biz bu çərçivədə, normallaşma prosesinin yekunlaşdırılması naminə xoş niyyətin və bütün öhdəliklərin zamanında icrasının həlledici əhəmiyyətini vurğulayırıq. Ermənistan konstitusiyasında hələ də qalmaqda davam edən ərazi iddialarının çıxarılması, paraflanmış ikitərəfli sazişinin imzalanmasına və onun sonrakı ratifikasiyasına və birdəfəlik sülhün təmin olunmasına imkan yaradacaq”,- deyən C.Bayramov əlavə edib ki, “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu”nun zamanında həyata keçirilməsi böyük əhəmiyyət kəsb edir. Bu multimodal bağlantılar marşrutu dəmir yolu, avtomobil yolu və digər kommunikasiyaları əhatə etməli və Ermənistan üçün qarşılıqlı bağlantı faydaları ilə birlikdə Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin etməlidir. Dəfələrlə bəyan edildiyi kimi, kommunikasiyaların açılmasının əhəmiyyəti təkcə Ermənistan və Azərbaycan arasında sülhün dayanıqlı olmasına təsir göstərmir, daha geniş miqyasda böyük faydalar gətirir.

Nazir onu da söyləyib ki, Azərbaycan özünün prinsipial və praqmatik xarici siyasətinə əsaslanaraq ATƏT çərçivəsində də konstruktiv əməkdaşlığa sadiqdir: “Bütün çatışmazlıqlara baxmayaraq, biz hərtərəfli təhlükəsizlik konsepsiyası və əhatəli üzvlük xüsusiyyətlərinə görə ATƏT-in roluna inanmaqda davam edirik. Bununla belə, aktual qalmaq üçün təşkilat adaptasiya etməyi bacarmalı və nəzərə çarpacaq nəticələr əldə etməlidir”.

### ATƏT sədri: Bu, ATƏT regionunda nikbinlik yaradan çox uğurlu nümunədir

Qeyd edək ki, ATƏT-in Nazirlər Şurasının 32-ci iclasında Azərbaycan və Ermənistan arasında əldə edilən razılaşmalara və tərəflər arasında davam edən sülh prosesinə xüsusi diqqət yetirilib. Finlandiyanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Elina Valtonenin sözlərinə görə, Azərbaycan və Ermənistan arasında münaqişənin başa çatması bütün ATƏT regionunda nikbinlik yaradan çox uğurlu nümunədir. O, bildirib ki, Azərbaycanla Ermənistan arasında razılaşmaların əldə edilməsi irəliyə atılmış addımdır və bu məsələ ATƏT-in builki fəaliyyətində əsas uğurlardan biri olub: “Mən hər iki ölkəyə səfər edərək sülh prosesi ilə yaxından tanış olmaq şansı əldə etmişəm. Hər iki ölkə ilə daim məhsuldar əlaqələrimiz mövcuddur. ATƏT bundan sonra da tərəflər arasında hazırda müzakirə edilən məsələlərlə bağlı istənilən dəstəyi verməyə hazırdır”.

İclasda xarici işlər nazirlərinin çıxışları zamanı, eləcə də Şuranın 4 dekabr tarixli plenar iclasının ikinci hissəsində münaqişədən sonrakı dövrdə regionda baş verən dəyişikliklərə müsbət qiymət verilib. Görüş Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Konfransın Yekun Aktının imzalanmasının 50-ci ildönümü ərəfəsində baş tutsa da, bir çox natiqlər mövcud vəziyyətin heç də bayram əhval-ruhiyyəsinə uyğun olmadığını bildiriblər. Ancaq Cənubi Qafqazda sülh prosesi mühüm hadisə kimi dəyərləndirilib.

İrlandiyanın Avropa işləri və müdafiə məsələləri üzrə dövlət naziri Tomas Birn Cənubi Qafqazda Azərbaycan və Ermənistan arasında sülh prosesi barədə danışarkən bildirib ki, siyasi iradə və güclü liderlik sülh yolunda müsbət nəticələrə gətirib çıxara bilər. “İrlandiyada sülh quruculuğu ilə bağlı tariximiz bizə sülhün bir proses olduğunu və davamlı sülhün hesabatlılıq və hərtərəfli yanaşma tələb etdiyini öyrətdi”, - deyə o, Cənubi Qafqazda dinc inkişafın müsbət nəticələnəcəyinə əminliyini ifadə edərək bildirib.

İslandiyanın xarici işlər naziri Torqerdur Katrin Qunnarsdottir çıxışında deyib ki, Azərbaycan və Ermənistan arasında son razılaşmaların və razılaşma əldə etmək üçün davam edən işlərin regionda sülhə və sabitliyə gətirib çıxaracağına böyük ümid var.

Portuqaliyanın Avropa məsələləri üzrə dövlət katibi İnes Dominqosun sözlərinə görə, Azərbaycan və Ermənistan 8 avqustda onilliklər boyu davam edən düşmənçiliyə son qoyacaq və digər uzunmüddətli münaqişələr üçün nümunə ola biləcək razılaşmalar əldə ediblər: “Bu razılaşma ATƏT regionunda sabitliyə əhəmiyyətli töhfə verir, Cənubi Qafqazda sülh və rifah üçün yeni imkanlar açır. Səmimi qəlbdən ümid edirik ki, bu, digər uzunmüddətli münaqişələrin və gərginliklərin həlli üçün ilham mənbəyi olacaq”.

İspaniya nümayəndə heyətinin rəhbəri, beynəlxalq məsələlər üzrə dövlət katibi Dieqo Martines Bellio da fikirlərini belə ruhda ifadə edib: “Biz xüsusilə Azərbaycan və Ermənistan arasında sülh gündəliyinin inkişafını alqışlayırıq. Qeyd etmək istərdim ki, bu, Helsinki prosesinin canlanmasına xidmət etməlidir”.

Yunanıstanın xarici işlər naziri Georgios Gerapetritis regiondakı vəziyyəti münaqişələrin həlli üçün model adlandırıb.

İtaliya xarici işlər nazirinin müavini Giorgio Cillinin sözlərinə görə, Roma Azərbaycan və Ermənistan arasında sülh prosesini alqışlayır, Cənubi Qafqazda sülh və inkişafın yeni mərhələsinə töhfə verməyə əvvəlki kimi sadiqdir.

Rumıniyanın xarici işlər naziri Oana Toyu isə Vaşinqtonda Azərbaycan və Ermənistan arasında əldə edilən razılaşmaları və davam edən sülh prosesini tarixi adlandırıb.

Slovakiyanın xarici işlər naziri Yuray Blanar da bildirib ki, Azərbaycan və Ermənistan arasında əldə edilən razılaşma tarixi hadisədir, sülh yolu ilə həll yolunda davam edən birgə səylər münaqişələrin dinc vasitələrlə həllinin həqiqətən mümkün olduğunu təsdiqləyir. O əlavə edib ki, region sülhə, sabitliyə və rifaha layiqdir.

***Nardar BAYRAMLI***

# YAP Gənclər Birliyinin nümayəndə heyəti Gürcüstanda səfərdə olub







Yeni Azərbaycan Partiyasının (YAP) Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, sədr müavini Fəsli Nəbiyev və Birliyin üzvü, Milli Məclisin deputatı Səbinə Xasayevadan ibarət nümayəndə heyəti “Gürcü Arzusu-Demokratik Gürcüstan” partiyasının Gənclər Təşkilatının dəvəti ilə 2025-ci il 3-5 dekabr tarixlərində Gürcüstanda səfərdə olub.

Dekabrın 3-də nümayəndə heyətinin “Gürcü Arzusu-Demokratik Gürcüstan” partiyasının Gənclər Təşkilatının üzvləri ilə görüşü keçirilib. Görüşdə gənclər təşkilatları arasında əməkdaşlığın əhəmiyyəti vurğulanıb, təcrübə və fikir mübadiləsi, birgə layihələr, təlim və seminarların təşkili istiqamətində qarşılıqlı maraq ifadə olunub. Vurğulanıb ki, bu ilin iyul-avqust aylarında Azərbaycanda və Gürcüstanda keçirilmiş Azərbaycan-Gürcüstan Gənclər Forumu gənclər arasında mövcud əməkdaşlığın müsbət nümunəsidir.

Görüş çərçivəsində Yeni Azərbaycan Partiyası Gənclər Birliyi ilə “Gürcü Arzusu-Demokratik Gürcüstan” partiyasının Gənclər Təşkilatı arasında Əməkdaşlıq Memorandumu imzalanıb. Sənəd qarşılıqlı fəaliyyətin genişləndirilməsini, birgə təşəbbüslərin həyata keçirilməsini və gənclərin inkişafına yönəlmiş proqramların dəstəklənməsini nəzərdə tutur.

“Gürcü Arzusu-Demokratik Gürcüstan” partiyasının Gənclər Təşkilatının sədri Giorgi Çakvetadze hakim partiyaların gənclər birlikləri arasında qarşılıqlı əlaqələrin dərinləşdirilməsinin xüsusi əhəmiyyət daşıdığını bildirib. O qeyd edib ki, imzalanan Memorandum gələcək ortaq təşəbbüslər, proqram və layihələrin reallaşdırılması üçün yeni imkanlar açır.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov isə bildirib ki, imzalanmış Əməkdaşlıq Memorandumu Azərbaycan və Gürcüstan gəncləri arasında uzunmüddətli işbirliyinin möhkəmlənməsinə xidmət edir. O vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin siyasi iradələri sayəsində uğurla davam edən yüksək səviyyəli münasibətlər gənclər təşkilatları arasında əməkdaşlığın genişləndirilməsi üçün də əlverişli şərait yaradır.

Dekabrın 4-də nümayəndə heyətinin Tbilisi Şəhər Assambleyasında görüşü baş tutub. Görüşdə Assambleyanın sədri Zurab Abaşidze, “Gürcü Arzusu-Demokratik Gürcüstan” partiyasının Şəhər Assambleyasında fraksiya rəhbəri Zurab Çikviladze, eləcə də Assambleya üzvləri iştirak ediblər. Tərəflər yerli özünüidarəetmə, gənclərin ictimai-siyasi fəallığının artırılması, bələdiyyə səviyyəsində həyata keçirilən gənclər təşəbbüsləri və Azərbaycan-Gürcüstan əməkdaşlığı çərçivəsində birgə layihələrin reallaşdırılması barədə fikir mübadiləsi aparıblar.

Daha sonra nümayəndə heyəti ilə Gürcüstan Parlamentinin Təhsil, elm və gənclər məsələləri komitəsinin sədri Mariam Laşki arasında görüş keçirilib. Görüşdə iki ölkənin gənclər siyasətinin prioritet istiqamətləri, təhsil sahəsində əməkdaşlıq imkanları və gənclərin qanunvericilik təşəbbüslərində iştirakı müzakirə olunub.

Səfər çərçivəsində nümayəndə heyətinin Gürcüstan Parlamentində Azərbaycan Parlamenti ilə Dostluq Qrupunun sədri İrakli Kadaqişvili ilə görüşü də baş tutub. Tərəflər Azərbaycan-Gürcüstan münasibətlərinin strateji xarakter daşıdığını qeyd edərək, bu əməkdaşlığın gənclər təşkilatları arasında da genişləndirilməsinin vacibliyini vurğulayıblar. Səfər çərçivəsində keçirilən görüşlərin iki ölkənin gəncləri arasında əlaqələrin daha da dərinləşməsinə əlavə imkanlar yaratdığı qeyd olunub.

# “Ən böyük qlobal irəliləyiş”

## Azərbaycan “StartupBlink” reytinqində Mərkəzi Asiya regionunda ən yüksək göstəriciyə nail olub

İnnovasiya iqtisadiyyatı üzrə mühüm araşdırma platforması olan “StartupBlink” 2025-ci il üçün “StartupBlinkStartup Ecosystem Awards” reytinqinin nəticələrini açıqlayıb. Nəticələrə əsasən, Azərbaycanın innovasiya ekosistemi Mərkəzi Asiya üzrə “Ən Böyük Qlobal İrəliləyiş” mükafatına layiq görülüb. Respublikamız reytinqdə 6 pillə irəliləyərək bu kateqoriyada Mərkəzi Asiya ölkələri arasında ən yüksək göstəriciyə nail olub. “Ən Böyük Qlobal İrəliləyiş” mükafatı Azərbaycanın innovasiya siyasəti operatoru İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinə (İRİA) təqdim edilib. “StartupBlink”in hesabatında qeyd edilir ki, İRİA-nın fəaliyyəti nəticəsində ölkədə innovasiya infrastrukturu and startap siyasəti əhəmiyyətli dərəcədə inkişaf edib. Vurğulanır ki, İRİA-nın innovasiya sahəsində liderliyi və dayanıqlı startap ekosistemi qurub.

### Rəqəmsal reytinqlərdə davamlı irəliləyişlər

Azərbaycan son illərdə rəqəmsal innovasiya ekosisteminin inkişafına xüsusi diqqət yetirir və beynəlxalq təcrübəni mənimsəyərək ən qabaqcıl alətləri tətbiq edir. Rəqəmsallaşma ilə bağlı qabacıl Avropa və Asiya şirkətləri ilə birgə əməkdaşlıq sayəsində respublikamız qlobal miqyasda rəqabət qabiliyyəti innovasiya indeksləri üzrə mövqeyini artırır. Ölkəmiz Dünya İqtisadi Forumunun “Qlobal İnformasiya Texnologiyaları”, BMT-nin “E-Hökumət müayinəsi” hesabatlarında mövqeyini yaxşılaşdıraraq bir neçə pillə yüksəlib. Həmçinin Azərbaycan Dünya Bankının hazırladığı “GovTech Yetkinliyi İndeksi”nin (GovTech Maturity İndex - GTMI) hesabatında yüksək nəticələr əldə edib.

Eləcə də BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının “Transsərhəd kağızsız ticarət” indikatoru üzrə hər il açıqlanan beynəlxalq reytinqində Azərbaycanın mövqeyi MDB və region ölkələri arasında ən üst sırada yer alıb. Ölkəmiz, həmçinin ötən il nəşr edilən “Qlobal İnnovasiya İndeksi”ndə innovasiya fəaliyyətinin səmərəliliyinə görə, irəliləyiş əldə edib və göstəricilərini 4 pillə yaxşılaşdıraraq 89-cu yerdə qərarlaşıb. Azərbaycan “innovasiya resursları” alt indeksi üzrə isə 76-cı yerdə qərarlaşıb. Habelə beynəlxalq kibertəhlükəsizlik reytinqində (Global Cybersecurity Index. 2024) Azərbaycan 93,76 xal toplamaqla öz mövqeyini yüksəldib. 194 ölkənin 20 indikator üzrə qiymətləndirilməsinin aparıldığı hesabata əsasən, son 4 ildə kibertəhlükəsizlik sahəsində dünya ölkələrinin orta reytinq göstəricisi təxminən 20 faiz yüksəlib və qlobal orta göstərici 65,7 xala çatıb.




### Rəqabətqabiliyyətli startap modeli

İnnovasiya və rəqəmsal inkişafın göstəricisi olan olan “StartupBlink” reytinqi Azərbaycanın rəqəmsal uğurunun növbəti təzahürü hesab edilə bilər. Hər il dərc edilən “StartupBlink Startup EcosystemAwards” və “StartupBlink” platforması qlobal alqoritmlərə əsaslanan innovasiya reytinqi sayılır. Reytinq tədqiqatı 40 parametr əsasında müəyyənləşdirilir. Həmin parametrlərdən ən mühüm və hesabat reytiniqini müəyyən edən indikatorlardan biri startapların inkişafıdır. İnnovasiya modelinin mühüm atributlarından biri hesab edilən strataplar Azərbaycanda ekosistemin mükəmməl nümunələrindən biri kimi özünü doğrultmaqdadır. Bir neçə ildir ki, fəaliyyət göstərən “Startap Azərbaycan” platforması startaplar, investorlar, maliyyə fondları, yeni rəqəmsal alətlərə dəstək verməklə gənc biznes komandasının təşviqinə, böyüməsinə səbəb olmaqdadır. Bunun nəticəsidir ki, süni intellektin atributlarından biri olan bu layihələrə qoşulan gənc istedadların sayı durmadan artır. 2022-2024-cü illər ərzində yerli startaplarımız müxtəlif qlobal investor və təşkilatlardan 2,4 milyon avrodan çox investisiya cəlb ediblər.

Startaplar uğurlu biznes layihəsi kimi kiçik və orta biznesi (KOB) də xüsusi innovasiyalara təşviq edir, yeni təşəbbüslərə qoşur. Bunun nəticəsidir ki, ölkəmizdə “Startap” şəhadətnaməsi almaq istəyən biznes icmasını sayı dayanmadan artır. 2025-ci ilin birinci yarısında 54 mikro və kiçik sahibkar “Startap” şəhadətnaməsi almaq üçün Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) müraciət edib ki, Ekspertlər Şurası 27 biznes təmsilçisinin “Startap” şəhadətnaməsi ilə təmin edilməsinə razılıq verib. Şəhadətnamə almış sahibkarların 23-ü hüquqi, 4-ü fiziki şəxsdir. Onlardan 23-ü mikro, 4-ü isə kiçik sahibkarlıq subyektidir. “Startap” şəhadətnaməsi almış KOB subyektlərinin 20-si Bakı şəhərində, 7-si isə regionlarda fəaliyyət göstərir. Şəhadətnamə almış sahibkarların 4-ü qadındır.

### “StartupGenome” hesabatında yüksək mövqe

Azərbaycanlı startapçılar biznes ideyaları, kəşf və bacarıqları ilə artıq qlobal bazarlarda uğurlu investorlar kimi qəbul edilir. KOBİA, Xəzər-Vençur, Elmin İnkişafı Fondu, Prezident yanında Gənclər Fondu, Sahibkarlar Təşkilatları Milli Konfederasiyasında təmsil olunan bacarıqlı gənc ideya müəllifləri kifayət qədər uğur qazanmağa nail olub. Ölkəmizi təmsil edən “SkyBee” komandası Ümumdünya Startap Yarışmasının (World Startup Competition) Asiya və Afrika üzrə Regional Final Müsabiqəsində 30-dan artıq texnologiya şirkəti arasında “Aqrar sektorda ən yaxşı startap” nominasiyasının qalibi olub.

Dünya ölkələrinin innovasiya ekosisteminin təhlilini aparan “StartupGenome” şirkətinin bir müddət əvvəl açıqladığı 2025-ci il üzrə hesabatda Azərbaycan “Asiya ekosistemində istedadların əlçatanlığı” reytinqində 25 ölkə arasında yer alır. Bu uğurlu göstəricilər bir daha Azərbaycanın startap platformasının qabaqcıl model kimi inkişaf edərək rəqabətli insan kapitalının formalaşmasında mühüm rolunu göstərir.

***E.CƏFƏRLİ***

# Azərbaycan beynəlxalq birliyin diqqət mərkəzində...

Azərbaycan dünyada etibarlı tərəfdaş və nüfuzlu dövlət kimi tanınır. Ölkəmiz həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Bu mənada, Azərbaycanın strateji tərəfdaşlıq əlaqələri güclənir, dostlarının və tərəfdaşlarının sayı artır. Təsadüfi deyil ki, hazırda ayrı-ayrı dövlətlər Azərbaycanın beynəlxalq münasibətlər sistemində fəal rolunu, praqmatik xarici siyasət kursunu yüksək qiymətləndirir, respublikamızla müxtəlif sahələri əhatə edən əlaqələrin inkişafına böyük önəm verilir.










## Aİ və ATƏT Azərbaycanın rolunu yüksək qiymətləndirir

Yeri gəlmişkən, xarici işlər naziri Ceyhun Bayramovun ATƏT Nazirlər Şurasının Vyana şəhərində keçirilən 32-ci iclası çərçivəsində keçirdiyi çoxsaylı ikitərəfli görüşlər də beynəlxalq birliyin ölkəmizə marağının göstəricisidir. Qeyd edək ki, C.Bayramovun Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas ilə görüşündə Azərbaycan-Avropa İttifaqı əməkdaşlıq gündəliyinin hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Son zamanlar tərəflər arasında yüksək səviyyəli təmasların artan dinamikası məmnunluqla qeyd olunub, bu dinamikanın davamlılığının və məhsuldarlığının qorunub saxlanılmasının əhəmiyyəti diqqətə çatdırılıb.

Tərəflər arasında mövcud mexanizmlər üzrə səylərin və dialoqun intensivləşdirilməsinin əhəmiyyəti vurğulanıb. Enerji təhlükəsizliyi, nəqliyyat və kommunikasiyalar, ticarət-iqtisadi əməkdaşlıq istiqamətləri üzrə əməkdaşlığın genişləndirilməsi məqsədilə həyata keçirilən fəaliyyətlər barədə fikir mübadiləsi aparılıb. Azərbaycanın Avropa İttifaqının enerji təhlükəsizliyində oynadığı rol və bu çərçivədə verdiyi töhfələr yüksək qiymətləndirilib, bərpa olunan enerji mənbələri, enerji səmərəliliyi və elektrik enerjisi ixracı sahəsində həyata keçirilən layihələr nəzərdən keçirilib.

Eləcə də regionumuzun nəqliyyat-kommunikasiya potensialının artırılması və şaxələndirilməsi məqsədilə mövcud marşrutlar üzrə infrastruktur imkanlarının genişləndirilməsi və yeni marşrutların yaradılması istiqamətində atılan addımların əhəmiyyəti qeyd edilib.

C.Bayramov, regional təhlükəsizlik məsələləri, Cənubi Qafqaz regionunda post-münaqişə reallıqları, davamlı sülh və sabitliyin təmin olunması istiqamətində Azərbaycanın həyata keçirdiyi fəaliyyət və ölkəmizin yürütdüyü sülh gündəliyi üzrə son proseslər və gözləntilərimiz barədə qarşı tərəfə məlumat verib. Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər müzakirə olunub.

C.Bayramov, həmçinin ATƏT-in Baş katibi Feridun Sinirlioğlu ilə görüşüb. Görüşdə Azərbaycan-ATƏT ikitərəfli əməkdaşlıq gündəliyinin əsas istiqamətləri, hazırda ATƏT-in üzləşdiyi çağırışlar, regional və beynəlxalq təhlükəsizlik məsələləri, bölgədəki mövcud vəziyyət, eləcə də Azərbaycan-Ermənistan sülh prosesi müzakirə olunub. Eləcə də, Avropada təhlükəsizliyin ciddi çağırışlarla üzləşdiyi hazırkı dövrdə beynəlxalq hüquq normalarının, xüsusilə suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı kimi prinsiplərin qeyd-şərtsiz tətbiqinin təşviq edilməsinin vacibliyi qeyd olunub.

Nazir post-münaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, Vaşinqton sammitinin nəticələri, ölkəmizin sülh prosesi çərçivəsində gözləntiləri barədə qarşı tərəfi məlumatlandırıb.İşğal dövrünün qalıqları olan Minsk Prosesi və əlaqədar strukturların ləğvinin ATƏT-in fəaliyyətinin effektivliyi, habelə regional reallıqlara uyğun şəkildə işin təşkili baxımından vacibliyi vurğulanıb və əldə olunmuş nəticə təqdir olunub. Görüş zamanı həmçinin, ATƏT çərçivəsində qarşılıqlı maraq doğuran məsələlər və geniş regionda təhlükəsizlik vəziyyəti ətrafında fikir mübadiləsi aparılıb.

## NATO ilə əməkdaşlıq diqqət mərkəzindədir

Azərbaycanın XİN başçısı C.Bayramovun NATO Baş katibinin müavini Radmila Şekerinska ilə görüşündə isə ölkəmiz və NATO arasında əməkdaşlıq gündəliyinin təhlükəsizlik, müdafiə, enerji təhlükəsizliyi və digər aspektləri müzakirə olunub. NATO üzv ölkələrinin səfirlərinin cari ilin noyabr ayında ölkəmizə səfəri və yüksək səviyyəli görüşlər məmnunluqla xatırlanıb.

C.Bayramov, Vaşinqton sammiti çərçivəsində əldə olunmuş razılıqlar və sülh perspektivləri, bölgədə nəqliyyat dəhlizləri üzrə planlar barədə məlumat verib.Görüş zamanı qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər, NATO mexanizmləri çərçivəsində əməkdaşlıq ətrafında fikir mübadiləsi aparılıb.

C.Bayramov, həmçinin Fransa Xarici İşlər Nazirliyinin Avropa məsələləri üzrə naziri Benjamin Haddad ilə görüşüb. Rəsmilər Azərbaycan-Fransa münasibətlərinin cari məsələləri və perspektivləri, regional təhlükəsizlik, çoxtərəfli platformalar çərçivəsində əməkdaşlıq barədə fikir mübadiləsi aparıblar.

XİN başçısının Kanada Xarici İşlər Nazirliyinin parlament katibi Robert Olifantla görüşündə isə ikitərəfli əməkdaşlıq, regional inkişaf və ATƏT çərçivəsində ortaq prioritetlər müzakirə olunub.

## İkitərəfli münasibətlər müzakirə edilib

Azərbaycanın XİN başçısı gürcüstanlı həmkarı Maka Botçorişvili ilə də görüşüb.Görüş zamanı Azərbaycan-Gürcüstan strateji tərəfdaşlıq münasibətlərinin bütün istiqamətlər üzrə inkişaf dinamikası müsbət qiymətləndirilib, iki ölkə arasında dostluq, qarşılıqlı dəstək və mehriban qonşuluq prinsiplərinə əsaslanan əməkdaşlığın regionda sabitlik və inkişaf üçün mühüm rol oynadığı qeyd edilib.

Həmçinin ikitərəfli iqtisadi və ticarət əlaqələri, o cümlədən enerji, nəqliyyat-logistika istiqamətlərində indiyədək həyata keçirilmiş müştərək strateji layihələr barədə fikir mübadiləsi aparılıb. Regionda nəqliyyat-kommunikasiya dəhlizlərinin gücləndirilməsinin hər iki ölkənin, eləcə də bütün regionun rifahı üçün strateji əhəmiyyəti vurğulanıb.

C.Bayramov Vaşinqton sammitindən sonra sülh prosesi ilə bağlı ətraflı məlumat verib. Vaşinqtonda əldə olunmuş razılıqların regionda sülh gündəliyinin irəliləməsi baxımından mühüm dönüş nöqtəsi olduğu vurğulanıb, ölkəmizin proses çərçivəsində gözləntiləri diqqətə çatdırılıb.

Bundan əlavə, C.Bayramov Vyanada Rumıniyanın xarici işlər naziri Oana-Silvia Toiu, Kiprin xarici işlər naziri Konstantinos Kombos, İrlandiyanın Avropa məsələləri və müdafiə üzrə dövlət naziri Tomas Byrne, Niderland Krallığının xarici işlər naziri Deyvid van Vil, Norveç Krallığının xarici işlər naziri Espen Bart Eide və digər ölkələrin rəsmiləri ilə də görüşlər keçirib.

*Nardar BAYRAMLI*

# Bakı və Bağdad iqtisadi əlaqələri artırmaq niyyətindədir

**Bakıda Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın 4-cü iclası keçirilib. İclasda iqtisadiyyat, sənaye, ticarət, qarşılıqlı investisiyalar, neft və qaz, rəqəmsal inkişaf, elm və təhsil, mədəniyyət, turizm, gənclər və idman sahələrində əməkdaşlıq imkanlarına dair geniş müzakirələr aparılıb. Birgə Komissiyanın Azərbaycan tərəfindən həmsədri, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev bildirib ki, sıx tarixi, dini və mədəni əlaqələrə malik iki dost ölkə olan Azərbaycan və İraq arasında müxtəlif sahələr üzrə əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensial mövcuddur. Hazırda tərəflər arasında ticarət dövriyyəsinin həcmi mövcud imkanları əks etdirmir, bu baxımdan ticari mübadilələrin artırılması üçün səylərin artırılmasına ehtiyac var. Birgə Komissiya qarşısında duran əsas məsələlərdən biri də məhz iqtisadi-ticari mübadilələrin artırılmasını təşviq edən səmərəverici alətlərdən istifadəni gücləndirməkdir.**

## Hökumətlərarası Komissiyanın iclasında yeni hədəflər müəyyən edilib

### “ASAN xidmət” modeli İraqda tətbiq olunacaq




Birgə Komissiyanın İraq Respublikası tərəfindən həmsədri, rabitə naziri Hayam Al-Yasir bildirib ki, Azərbaycan və İraq yaxın dost və etibarlı tərəfdaş ölkələr kimi siyasi-iqtisadi sahələrdə son illərdə təmasları artırmaqdadır. Tərəflər müxtəlif beynəlxalq təsisatlarda hər zaman həmrəylik nümayiş etdirərək BMT-də, Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında bir-birini dəstəkləyir, qarşılıqlı olaraq bir çox layihələrin reallaşmasında fəal mövqe nümayiş etdirir. Nazir vurğulayıb ki, iki ölkə arasında iqtisadi münasibətlərin hərarətinə 2011-ci ildən fəaliyyət göstərən Ticarət, iqtisadiyyat, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyası da mühüm töhfə verib. Komissiya bir çox istiqamətlər üzrə real addımların atılmasında təşviqedici və dəstəkləyici fəaliyyət göstərib. Nəticədə iki ölkə arasında iqtisadi dövriyyənin artımında müsbət dinamika daha da güclənib.

İraq Azərbaycanın şəffaflıq modeli olan “ASAN xidmət”i də tətbiq etmək niyyətindədir. İraqın rabitə naziri Həyam Əlyasirin rəhbərlik etdiyi nümayəndə heyəti “ASAN xidmət” mərkəzlərinin fəaliyyəti ilə tanış olarkən vurğulayıb ki, birgə əməkdaşlıq çərçivəsində bu layihə üzrə Azərbaycanın təcrübəsi mənimsəniləcək.

### Azərbaycan-İraq Biznes Şurası investisiyaları təşviq edir

İki ölkə arasında iqtisadi təmasların irəliyə aparılmasında əhəmiyyətli paltforma kimi Azərbaycan- İraq Biznes Şurasının fəaliyyəti də mühüm yer tutur. Tərəflər Şuranın da fəaliyyətinin aktivləşdirilməsini və investisiya-ticari mübadilələrdə yeni təkliflər hazırlanmasının vacibliyini xatırladıb. Qeyd edək ki, hazırda 170-ə yaxın İraq şirkəti Azərbaycanda müxtəlif sektorlar üzrə fəaliyyət göstərir. Azərbaycan şirkətləri İraqda böyük infrastruktur layihələrində podratçı qismində iştirak edib və bu ölkədə inşaat, enerji, su təchizatı, yol və körpülərin tikintisinə tələbin mövcudluğu şirkətlərin İraqda fəaliyyəti üçün yeni imkanlar açır.

İki ölkənin biznes icmasının və iqtisadi sahələri təmsil edən dövlət orqanlarının nümayəndələrinin iştirakı ilə keçirilən Biznes-forumlar isə ticari-iqtisadi əlaqələrin artırılması, investisiya imkanlarının qiymətləndirilməsi, yeni layihələrdə əməkdaşlığın təmin edilməsi istiqamətində mühüm platforma rolunu oynamaqdadır. Ötən il Azərbaycan İqtisadiyyat Nazirliyi, İraqın Ticarət Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) və İraqın Ticarət Palataları Federasiyasının birgə təşkilatçılığı ilə Bakıda keçirilən Azərbaycan-İraq Biznes-forumu perspektiv potensialların əlaqələndirilməsinə töhfə verib və kənd təsərrüfatı, qida, logistika, tikinti, konsaltinq, gəmiçilik və s. sahələrdə yeni anlaşmalar əldə edilib.

### İraq “Şimal-Cənub” nəqliyyat dəhlizinə qoşulmaqda maraqlıdır

Azərbaycan son illərdə ixracın diversifikasiyasına xüsusi yer ayırır və yeni xarici bazarlarda mövqe tutmağa çalışır. Orta Şərq-Afrika regionuna ixracın təmin edilməsi istiqamətində aparılan araşdırmalar da məhz ixracın şaxələndirilməsinə xidmət edir. İraq bazarı da ölkəmizin ixracatçıları üçün maraqlıdır. Tütün məhsullarından böyük asılı olan İraqa Azərbaycan şirkətlərinin daxil olması realdır. İraqın qızıl məhsullarından asılılığı da böyükdür, habelə ölkəmiz İraqa mineral və süfrə suları da ixrac etməyi planlaşdırır. Bundan başqa, tikinti məhsulları, aliminium və qənnadı məmulatları ixracı çox önəmli istiqamət ola bilər.

İraq Orta Şərq-Asiya regionunda strateji coğrafi mövqeyə malikdir və böyük bir coğrafiyanın tranzit-nəqliyyat əlaqələrinin birləşməsində qovşaqlardan biridir. Bu baxımdan İraqın Orta Dəhlizə inteqrasiyası realıdır və Azərbaycanla nəqliyyat sahəsində əlaqələrin artırılması da buna xidmət edir. İraq həm də Orta-Mərkəzi Asiya regionu ölkələri üçün də xüsusi tranzit qapısıdır. İranın və Azərbaycanın əsas yer aldığı “Şimal-Cənub” nəqliyyat dəhlizinə çıxış üşün də əlverişli geocoğrafi imkanlara malikdir. Rəsmi Bağdad dəfərlərlə regional dəhlzilərə inteqrasiya, o cümlədən “Şimal-Cənub” dəhlizinə qoşulmağa hazır olduğunu bəyan edib. Ona görə də, həm Şərq-Qərb, həm də Şimal-Cənub dəhlzilərinin strateji kəsişməsində mühüm mövqe tutan Azərbaycanın İraqla bu bağlantılarda sıx birləşməsi getdikcə aktuallaşır.

Azərbaycan Cənubi Qafqaz bölgəsində yaranmış yeni fürsətlərdən, o cümlədən respublikamızın təşəbbüsü ilə sülh quruculuğu ilə bağlı təmin edilən imkanlardan İraq investorlarının da faydalanmasını təklif edir. Habelə işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma və bərpa işlərində İraq hökuməti və biznes icması üçün yaxşı imkanlar var ki, hazırkı məsləhətləşmələrdə bu mövzuya da diqqət çəkilib.

Qeyd edək ki, Birgə Komissiyanın iclası çərçivəsində protokol imzalanıb ki, sənəd Azərbaycan və İraq arasında etibarlı tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi və yeni birgə iqtisadi-ticari-investisiya imkanlarının artırılmasını nəzərdə tutur.

*E.CƏFƏRLİ*

# “Milli-mənəvi kimlik və müasir çağırışlar”

**Bu günlərdə Göyçay şəhərində “Milli-mənəvi kimlik və müasir çağırışlar” mövzusunda regional konfrans keçirilib. Regional konfrans Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə baş tutub. Konfransda müvafiq dövlət qurumlarının, eləcə də hüquq-mühafizə orqanlarının nümayəndələri, ilahiyyatçılar, din xadimləri, dini icma sədrləri, ictimaiyyət nümayəndələri iştirak ediblər. “Ənənəvi dini mühitə təhdidlər və mübarizə yolları” mövzusuna həsr olunan konfransın birinci panel sessiyasına Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) rektoru, dosent Aqil Şirinov moderatorluq edib.**

## Göyçayda mühüm konfrans baş tutdu

### İfratçılıq ənənəvi dini mühit üçün təhdid yaradır

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**

Aİİ-nin Elm və innovasiyalar üzrə prorektoru, dosent Mirniyaz Mürsəlov çıxışında ifratçılığın ənənəvi dini mühit üçün təhdid yaratdığını deyib. Qeyd edib ki, dini biliklərin təhrif edilməsi, sosial parçalanma, milli-mədəni irsə qarşı təbliğat və xüsusilə gənclərin radikallaşması bu təhdidlər arasında xüsusi yer tutur. Belə hallarla mübarizə yalnız hüquqi deyil, həm də sosial, mədəni, təhsil və psixoloji aspektlərdən yanaşma tələb edir.

Daha sonra çıxış edən Aİİ-nin dosenti Elvüsal Məmmədov radikal qrupların səciyyəvi cəhətlərinə toxunub, dini radikalizmin yayılma mexanizmlərindən söz açıb. Eyni zamanda, o, maarifləndirmə işinin düzgün qurulması, mötədillik ideyalarının təbliği, din xadimləri üçün seminar-treninqlərin keçirilməsinin vacibliyini vurğulayıb.

### Bu dini təhlükəsizliyə ciddi təhdid yaradır

Aİİ-nin Dinşünaslıq kafedrasının müdiri, dosent Anar Qafarov qloballaşmanın ənənəvi dini dəyərlərin qarşısına yeni çağırışlar qoymasından bəhs edib. Vurğulayıb ki, regionda geosiyasi güclərin rəqabəti, dini radikalizm və ekstremizmin artması, xaricdən yönləndirilən ideoloji təsirlər, sosial şəbəkələrdə dini məzmunlu dezinformasiyalar cəmiyyətin dini təhlükəsizliyinə ciddi təhdid yaradır. Bu təhdidlərin mahiyyətinin araşdırılması, onların sosial-psixoloji və ideoloji əsaslarının öyrənilməsi, habelə qarşısının alınması yollarının müəyyənləşdirilməsi mühüm məsələlərdəndir.




Konfransın ikinci paneli Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılovun moderatorluğu ilə “Milli-mənəvi dəyərlərin qorunması və cəmiyyətə çatdırılmasında din xadimlərinin rolu” mövzusuna həsr edilib.

### Dövlət-din münasibətləri modelimiz cəmiyyətdə harmoniya yaradır

Paneldə çıxış edən Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Ceyhun Əliyev bildirib ki, bu gün dünyada insan şüuruna təsir uğrunda mübarizə gedir və sosial şəbəkələrin imkanlarından bu istiqamətdə daha çox istifadə olunur: “Bu baxımdan, hazırkı dövrdə savadlı və müasir düşüncəli din xadimlərinin maarifləndirici rolu xüsusi əhəmiyyət kəsb edir. Din xadimi intellektual səviyyəsi, nümunəvi davranışı, sosial fəallığı ilə cəmiyyətə dəstək olmalıdır. Azərbaycanın dövlət-din münasibətləri modeli cəmiyyətdə harmoniya yaradaraq dəyərlərin qorunmasına möhkəm zəmin formalaşdırır.

### Fərqli düşüncə və mənsubiyyətlərə dözümlülük

Aİİ-nin dosenti Aslan Həbibov bildirib ki, cəmiyyətin sağlam, davamlı və sabit inkişafının əsas şərtlərindən biri vəhdətin, birlik, həmrəylik və qarşılıqlı anlayışın olmasıdır: “İnsanların bir-birinə hörmətlə yanaşması, fərqli düşüncə və mənsubiyyətlərə dözümlü olması, sosial münasibətlərin ahəngdar şəkildə davam etməsi vəhdətin göstəriciləridir. Bu prosesdə təkcə hüquqi mexanizmlər deyil, həm də mənəvi və ideoloji amillər mühüm rol oynayır”.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Ağdaş bölgəsi üzrə qazısı Əli Məmmədov qeyd edib ki, din xadimi cəmiyyətdə birlik yaradan şəxs olmalıdır: “Millətin gücü də məhz birlikdə, həmrəylikdə və mənəvi bütövlükdədir. Yerli folklor və adət-ənənələr milli kimliyi yaşadan dəyərlərdir”.

### Dinin fəlsəfəsi yanlış başa düşülür...

Tədbirin yekununda çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov bildirib ki, informasiya mühitində məlumatların sürətlə təhrif olunduğu dövr yaşanır: “Məkrli manipulyasiyalar nəticəsində dinin fəlsəfəsi yanlış başa düşülür, ehkamları təhrif olunur. Bu da, öz növbəsində, əvvəlcə fərdlərin, daha sonra isə bütövlükdə cəmiyyətin mənfi təsirlərə məruz qalmasına səbəb olur”.

### Din xadimlərinin üzərinə xüsusi məsuliyyət düşür

R.Məmmədov vurğulayıb ki, ideoloji təhdidlərin qarşısını almağın ən effektiv yolu insanları maarifləndirməkdir. O, cəmiyyəti və dini etiqad azadlığını yalnız bu yolla qorumağın mümkünlüyünü qeyd edib, bu işdə din xadimlərinin üzərinə xüsusi məsuliyyət düşdüyünü diqqətə çatdırıb: “Cəmiyyətdə formalaşmış sarsılmaz birlik ruhunu qorumaq hər kəsin peşə borcu, vəzifəsi olmaqla yanaşı, həm də vətəndaşlıq məsuliyyətidir”.

### Dini icmaların fəaliyyətinə dəstək hər zaman davam edir

Eyni zamanda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Göyçay rayonundakı Qarabaqqal kənd “Cümə” məscidini ziyarət edib. Məscidin din xadimləri ilə keçirilən görüşdə dövlət-din münasibətlərinin inkişafı, dini maarifləndirmənin gücləndirilməsi, milli-mənəvi dəyərlərin təbliği və gənclərin sağlam dini biliklərə yiyələnməsi məsələləri müzakirə olunub.

R.Məmmədov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda dini icmaların fəaliyyətinə göstərilən dəstək ardıcıl şəkildə davam etdirilir və gənclərin zərərli ideologiyalardan qorunmasında, vətənpərvərlik ruhunda tərbiyə olunmasında din xadimlərinin də üzərinə mühüm vəzifələr düşür.

Ramin Məmmədov din xadimlərini İslamın sülh, həmrəylik və insanpərvərlik prinsiplərinin düzgün təbliğində daha fəal olmağa çağırıb, milli-mənəvi dəyərlərə zidd ideoloji təsirlərə qarşı maarifləndirmə işinin gücləndirilməsinin vacibliyini vurğulayıb.

***Yeganə***

# AXCP niyə bağlanmalıdır?

## Cəmil Həsənli və Seymur Həzinin açıqlamaları buna əsas verir...



Azərbaycan dövlətinin və xalqının maraqlarına qarşı “cəbhə” açmış Əli Kərimliyə qarşı Cinayət Məcəlləsinin 278.1 (hakimiyyəti zorla ələ keçirməyə, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirməyə yönələn hərəkətlər) maddəsi ilə ittiham irəli sürülüb və onun barəsində müvafiq həbs qətimkan tədbiri seçilib. Artıq bir neçə gündür ki, gedən müzakirələrdən isə bu mətləb hasil olur ki, Kərimli əlində olan siyasi resurslardan məhz xəyanətinin vasitəsi kimi istifadə edib. Başqa sözlə, həm rəhbərlik etdiyi partiyadan, həm də himayədarlıq etdiyi “milli şura”dan özünün lokal maraqları çərçivəsində xarici kəşfiyyat orqanları ilə əlaqədə yararlanıb. Çox uzağa getmək gərəkmir - bunu elə AXCP sədrinin öz yaxınları “bəyan edirlər”.

Məsələn, Əli Kərimlinin müavini Seymur Həzi internet televiziyalarından birinə açıqlamasında deyib ki, saxlanılan Saleh Rüstəmlidən bir müddət əvvəl Rusiya Federal Təhlükəsizlik Xidməti, xüsusi xidmət orqanları tələb edirdilər ki, “o Əli Kərimli ilə danışsın, Azərbaycanda Ukraynanın müdafiəsi məsələsi dayandırılsın. Başqa sözlə, Azərbaycanda Ukraynanın mövqeləri müdafiə olunmasın, Azərbaycan bütövlükdə ruspərəst ölkə olsun...”

Diqqət yetirmək lazımdır ki, hələ 2018-ci ildə Respublika Baş Prokurorluğu və Daxili İşlər Nazirliyinin yaydığı birgə məlumatda isə bildirilirdi ki, Azərbaycan Xalq Cəbhəsi Partiyası adlı qurum ölkəmizdə və xaricdə dövlətimizə, dövlətçiliyimizə və milli maraqlarımıza zidd olaraq keçirilən tədbirlərinin maliyyələşdirilməsi üçün qanunsuz sahibkarlıq fəaliyyəti nəticəsində əldə edilmiş külli miqdarda çirkli pul vəsaitlərinin leqallaşdırılması əməllərini törətməsinə dair kifayət qədər sübutlar toplanıb. Həmin əməllərin törədilməsində qurumun funksionerlərindən Əli Kərimli, Qənimət Zayidov, Saleh Rüstəmov, Vidadi Rüstəmli, Aqil Məhərrəmov, Ruslan Nəsirov, Babək Həsənov və digərlərinin - Bakı şəhər sakinləri Ceyhun Hüseynov, Rauf İsgəndərov, Heydər Əhmədov və Tural Mehdixanovun adı qeyd edilirdi.

Bu sıraya Cəmil Həsənlinin də “etiraflarını” əlavə etmək olar. “Milli şura”nın sədri internet televiziyalarından birinə açıqlamasında deyib ki, Saleh Rüstəmlinin Rusiyadan çıxmasının səbəbi o idi ki, Rusiya FTX-sı onu məcbur edirdi ki, dostu Əli Kərimli Ukraynanı müdafiə etməsin. Deməli ki, Əli Kərimli və ətrafı birmənalı olaraq bu işlə məşğul olub - Cəmil Həsənlinin və Seymur Həzinin açıqlamalarından belə məlum olur ki, Əli Kərimli Saleh Rüstəmlinin timsalında fərqli adamlar vasitəsilə direktivlər alıb, sifarişlər yerinə yetirib. Belə olan halda, AXCP-nin bilavasitə məhz bu işə xidmət göstərməsi aydın olmurmu? Belə olan halda, həmin partiyanın bağlanması təklifi tam əsaslı sayılmırmı?

O ki qaldı, Namizəd Səfərovun AXCP-ni “müdafiə etmək” cəhdinə, onun açıqlamasına baxdıqda hər şey aydın olur. Bir partiyanın ki, adı belə N.Səfərovun yadında qalmır, hıqqana-hıqqana həmin partiyanın adını yadına salır, demək ki, bu “müdafiə” cəhdi də görüntü xatirinədir...

***SADİQ***

# Fransa demoqrafik çağırışla üz-üzə

Fransa uzun illər Avropada demoqrafik sabitliyi ilə seçilsə də, son illərin göstəriciləri bu üstünlüyün sürətlə zəiflədiyini ortaya qoyub. Doğum səviyyəsinin azalması, əhalinin yaşlanması və iqtisadi dinamikanın zəifləməsi ölkənin sosial modelinə, maliyyə dayanıqlılığına və əmək bazarına ciddi təsir göstərməkdədir. Hesablama Palatası dərc etdiyi hesabatla bu riskləri bir daha gündəmə gətirib.



AZƏRTAC xəbər verir ki, İkinci Dünya müharibəsindən sonra ilk dəfə olaraq Fransa 2025-ci ildə mənfi təbii artımla, yəni doğumdan daha çox ölüm halı ilə üzləşə bilər. Qadınbaşına düşən doğum sayı əhalinin özünü yeniləmə həddindən aşağı düşməkdədir. Eyni zamanda, ömür uzunluğunun artması fonunda əhalinin yaşlanması qaçılmaz hal alır.

“Insee” Sorğu İnstitutunun proqnozlarına görə, 2070-ci ildə 65 yaşdan yuxarı şəxslər ölkə əhalisinin təxminən üçdəbirini təşkil edəcək. Bu isə təkcə tibbi xidmət və baxım sektorunda deyil, həm də pensiya sistemi, dövlət maliyyəsi və əmək ehtiyatlarında kəskin təzyiq yaradacaq. Aktiv əhalinin azalması daha az sosial ödəniş, eyni zamanda isə artan yaşlı nəsil səbəbi ilə daha çox dövlət xərci deməkdir. İqtisadi artım potensialının zəifləməsi də əlavə risklər yaradır. Prezident Emmanuel Makron 2024-cü ilin əvvəlində “yenidən demoqrafik silahlanma” ifadəsini işlətsə də, ekspertlər bu prosesin asan olmadığını bildirirlər. Natalist siyasətlərin təsiri zəifdir və bir çox ölkələrdə gözlənilən nəticələri vermir. Eyni zamanda, immiqrasiya probleminin miqyasını tam kompensasiya edə bilməz, baxmayaraq ki, Fransa üçün xarici işçi qüvvəsindən imtina daha ciddi tənəzzüllə nəticələnə bilər.

Hesabatda qeyd olunur ki, doğum səviyyəsinin kəskin azalmasının qarşısını almaq çətin olacaq və buna görə də dövlət artıq uyğunlaşma strategiyasına başlamaq məcburiyyətindədir. Bunun üçün yaşlı və gənc işçi qruplarının məşğulluq səviyyəsi yüksəldilməlidir, əhalinin yaşlanmasına bağlı olaraq pensiya sistemi yenidən tənzimlənməlidir, maliyyə yükü təkcə aktiv nəsillərin üzərinə qoyula bilməz, məsuliyyət bölgüsü yenidən qurulmalıdır.

Doğum səviyyəsinin azalması ilə bağlı səbəbləri və nəticələri araşdıracaq parlament missiyası işə başlayacaq. Bu, demoqrafik məsələlərin indiyədək büdcə müzakirələrində kifayət qədər yer almamasına qarşı ilk addım kimi dəyərləndirilir.

Hesablama Palatasının prezidenti Pierre Moscovici xəbərdarlıq edir: “Demoqrafiyada borc məsələsində etdiyimiz səhvi təkrarlamayaq”.




# Sülh missiyasının 8-ci qələbəsi...

XXI əsrin başlanğıcından bəri qlobal təhlükəsizlik sistemi ardıcıl sarsıntılarla üz-üzədir. Soyuq müharibədən sonrakı mərhələdə formalaşdırılmış beynəlxalq nizam, xüsusilə də sülhün qorunmasına cavabdeh olan institutlar - BMT və digər beynəlxalq strukturlar, xüsusilə, regional təhlükəsizlik alyansları (vaxtilə yaradılmış, bir neçə gün öncə rəsmən ləğv olunmuş ATƏT-in Minsk Qrupu timsalında) artıq müasir reallıqlar qarşısında effektiv deyil. Silahlı münaqişələrin coğrafiyası genişlənib, lokal toqquşmalar beynəlxalq rəqabətin qlobal müstəviyə daşındığı platformalara çevrilib, yeni güc mərkəzlərinin yüksəlişi və geosiyasi rəqabətin sərtləşməsi dünya təhlükəsizliyinin konturlarını dəyişib. Son 10 ildə isə xüsusilə müşahidə olunan bu proseslər nəticəsində sülhün davamlılığını təmin edən mexanizmlər işləmir, böhranların idarə olunması gecikir, diplomatik vasitəçilik isə çox zaman güc siyasətinin kölgəsində qalır. Bu fon qlobal aləmdə yeni vasitəçilərə, fərqli diplomatik yanaşmalara ehtiyac yaradıb.

Məhz belə bir mərhələdə ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın son 11 ay ərzində həyata keçirdiyi sülh təşəbbüsləri beynəlxalq siyasətdə diqqətçəkən hadisələrdən birinə çevrilib. Trampın barış proseslərinə müdaxiləsi həm üslub, həm də sürət baxımından klassik diplomatiyadan fərqlənir. O, daha çox açıq danışıq formatı və birbaşa əlaqələr üzərində qurulan vasitəçilik xəttini tətbiq edir. Nəticə etibarı ilə, Tramp artıq 8 münaqişənin bitməsinə vəsilə olub - beləliklə, ABŞ Prezidenti qlobal təhlükəsizlik arxitekturasına böyük töhfə verib.

## Trampın vasitəçiliyi qlobal təhlükəsizliyə yeni təminat qazandırıb

### Asiyada baş verənlərə müdaxilə...

Vurğulanan bu xətt hər bir münaqişənin həlli prosesində özünü göstərir. Məsələn, Ermənistan ilə Azərbaycan, Pakistan ilə Hindistan, Rusiya ilə Ukrayna, Konqo ilə Ruanda, İsrail ilə HƏMAS arasında baş verən münaqişələrin sonlandırılmasında, kataklizmlərin sülh prosesi ilə əvəzlənməsində Trampın səyi aşkar şəkildə görünür. Bu ilin oktyabrın 26-da ASEAN sammiti çərçivəsində, sərhəd toqquşmalarından sonra Tayland və Kamboca arasında genişlənmiş atəşkəs / barış razılaşması imzalanıb. Tramp həmin mərasimdə iştirak edib. Razılaşmaya görə, ağır silahlar sərhəddən çıxarılacaq, minlərlə minanın təmizlənməsi, nəzarət mexanizmləri yaradılması və sülh monitorinqi nəzərdə tutulub. Bu təşəbbüs Trampın Asiyada diplomatik rolunu bərpa etdiyini göstərən nümunə kimi qiymətləndirilib.

Və ya bir neçə gün öncə Ruanda ilə Konqo arasında sülh müqaviləsinin imzalanmasını buna misal çəkmək olar - müqavilə çərçivəsində Ruandanın KDR-dəki silahlı varlığına son qoyulması, qoşun geri çəkilməsi, silahlı qrupların silahsızlaşdırılması, təhlükəsizlik mexanizmlərinin yaradılması və regionda iqtisadi inteqrasiyanın təşviqi nəzərdə tutulub. ABŞ, bu razılaşma vasitəsilə regionun iqtisadi inkişafını nəzərdə tutan bəzi addımları atılmasını da nəzərdə tutur. Bu isə, sülhün həm siyasi, həm də iqtisadi komponent daşıdığını göstərir.

### Trampın sülh səyləri...

Və ya İsrail-HƏMAS qarşıdurmasına diqqət yetirək. Ötən ay qlobal təhlükəsizliyi təhdid edən əsas münaqişə ocaqlarından sayılan Yaxın Şərqdə sabitliyin formalaşması yönündə əsaslı addımlar atıldı - BMT Təhlükəsizlik Şurası Qəzzada Beynəlxalq Sabitləşdirmə Qüvvələrinin (ISF) yerləşdirilməsi ilə bağlı ABŞ-ın qətnaməsini qəbul etdi. ABŞ tərəfindən təqdim edilən mətndə İsrail və Misirlə əməkdaşlıq edəcək Beynəlxalq Sabitləşdirmə Qüvvələrinin (ISF) yerləşdirilməsi və orada keçid idarəetməsinin qurulması üçün mandatın verilməsi qeyd olunur. Xatırladaq ki, oktyabrın 13-də Şarm əl-Şeyxdə Yaxın Şərq Sülh Sammitində bununla bağlı sülh sazişi imzalanmışdıdı. Sazişin imzalanması prosesində sənədi dörd vasitəçi ölkə imzalamışdı: ABŞ, Qətər, Misir və Türkiyə. Trampın şəxsi səyi nəticəsində meydana çıxan sülh planı Yaxın Şərqdə silahların susmasına səbəb oldu. Artıq Qəzzada yeni inkişaf məorhələsinin başlanmasına ümidlər böyükdür. Planın ikinci mərhələsinin tətbiqinə start verilir.

Eyni fikirləri Pakistan ilə Hindistan arasında bu ilin yazından başlanan gərginliklərə də şamil etmək olar. Məlum olduğu kimi, aprelin 22-də Cammu və Kəşmir bölgəsində yerləşən Pahalqam şəhərində baş vermiş hadisənin ardından gərginləşən münasibətlər hərbi toqquşmaya yol açmışdı və Hindistan Kəşmir bölgəsində raket zərbələri endirmişdi. Sonradan atəşkəs əldə olunsa da, sabitlik məhz Trampın vasitəçiliyi ilə təmin olundu. Tramp mətbuata açıqlamasında da bildirmişdi ki, "Mən Hindistanla ticarət müqaviləsi bağlayırdım. Bildiyiniz kimi, Baş nazir Modiyə böyük hörmətim və sevgim var və münasibətlərimiz əladır. Eynilə, Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şəriflə də o, əla insandır. Mən hər ikisini tanıyıram. Onlar iki nüvə dövlətidir və həqiqətən müharibəyə hazırlaşırdılar. Baş nazir Modiyə zəng etdim. Dedim ki, "Sizinlə ticarət müqaviləsi bağlaya bilmərik". O dedi ki, "Xeyr, xeyr, ticarət müqaviləsi bağlamalıyıq." Mən dedim ki, "Xeyr, bacarmırıq. Siz Pakistana qarşı müharibəyə başlayırsınız". Cavab belə oldu ki, biz bunu etməyəcəyik. Sonra Pakistana zəng etdim. Dedim ki, "Sizinlə ticarət etməyəcəyik, çünki siz Hindistanla müharibədəsiniz". Bilirsiniz, bunlar iki nüvə gücüdür. Onlar müharibəyə son qoydular".

Bu kimi incə detallar digər münaqişələrlə bağlı da nəzərə çarpır. Məsələn, ABŞ Prezidenti aylardır ki, Rusiya-Ukrayna cəbhəsində sülhə nail olmaq üçün səy göstərir. Artıq bu istiqamətdə mühüm bir yol qət olunub.

### Qlobal sülhə verilən töhfə...

Beləliklə, bir daha məlum olur ki, münaqişə bölgələri üzrə müxtəlif dərəcədə nəticələr əldə olunması bir tərəfdən ABŞ diplomatiyasının yenidən aktivləşməsi, digər tərəfdən isə ənənəvi mexanizmlərin əvəzlənməsi istiqamətində yeni tendensiyanın yaranması deməkdir. Trampın təşəbbüsləri göstərdi ki, bəzən formal strukturlardan çox fərdi diplomatiya, liderlərarası birbaşa dialoq və siyasi iradə həlledici rol oynaya bilir. Bu, qlobal təhlükəsizlik sistemində yeni dinamikaların formalaşmasına təkan verir. Nəticə etibarilə, son 11 ayda həyata keçirilmiş bu təşəbbüslər hər nə qədər tam davamlı sülh üçün kifayət etməsə də, dünya siyasətində yeni vasitəçilik texnikalarının yaranmasına, uzun illərdir dondurulmuş və ya mürəkkəbləşmiş münaqişələr üzrə hərəkətlilik yaradılmasına səbəb olub. Bu isə XXI əsrin mürəkkəb geosiyasi mühitində qlobal sülhün formalaşması istiqamətində əhəmiyyətli töhfə kimi qiymətləndirilə bilər.

### Sülh İnstitutu Trampın adını daşıyacaq...

Konqo ilə Ruanda arasında sülhün imzalanması Donald Trampın sülh missiyasının 8-ci qələbəsidir. Bundan öncə ABŞ dövlət başçısı Kamboca və Tailand, eləcə də İsrail-Fələstin və digər qlobal münaqişələrin sülh yolu həllində öz vasitəçiliyini göstərmişdi. Bu arada, Amerika Sülh İnstitutu (US Institute of Peace, USIP) Vaşinqtonda yeni ad alıb - bundan sonra qurum Donald Trampın adını daşıyacaq. Bu barədə ABŞ Dövlət Departamenti "Twitter"də məlumat yayıb. Verilən xəbərdə göstərilir ki, institut "ölkə tarixində ən böyük danışıqlar aparanı"nın şərəfinə yenidən adlandırılıb. Qurumun rəsmi adı Donald J. Trump Institute of Peace olaraq dəyişdirilib.

Dövlət Departamenti başqa bir açıqlamasında vurğulayıb ki, 2025-ci il, İkinci Dünya müharibəsindən bəri ABŞ xarici siyasətində ən radikal dəyişikliklərin yaşandığı dövr olub: "8 ayda 8 müharibə bitirildi. 'Amerika hər şeydən öndə' siyasəti. Dünya səhnəsində hörmətin bərpası." CNN-in məlumatına görə, Trampın adının yazıldığı lövhə institutun Vaşinqtondakı qərargahına 4 dekabrda Ruanda və Konqo Demokratik Respublikası arasında imzalanacaq sülh sazişi ərəfəsində quraşdırılıb. Sülh İnstitutu 1984-cü ildə prezident Ronald Reyqanın dövründə Konqres tərəfindən yaradılıb və konfliktlərin sülh yolu ilə həlli üzrə araşdırmalar və praktik fəaliyyətlə məşğul olub. CNN xatırladır ki, Tramp administrasiyası hakimiyyətdə olarkən USIP-in fəaliyyətini demək olar ki, tam dayandırmış və onu növbəti il üçün federal maliyyələşdirmədən məhrum etmişdi.

***P.İSMAYILOV***

# Ağappaq əbədi sükut

## Ernest Heminqueyin "Kilimancaronun qarı" hekayəsi haqqında

1957-ci ilin aprel ayının 15-də Virciniya universitetində apardığı növbəti ədəbi məşğələdə Ernest Heminqueyin nəsildaşı, həm də ədəbi-estetik rəqibi Uilyam Folkner tələbələrdən birinin ona ünvanladığı "Uzun cümlələrdən istifadə eləməklə hansı məqsədi güdürsünüz - şüur axını təsəvvürü yaratmaq istəyirsiniz, yoxsa öz fikrinizi bu yolla ifadə etmək sizin üçün daha asandır?" sualına belə cavab vermişdi: "Bu, eynilə dülgərin əlindəki iş üçün hansı alətin daha uyğun olacağını seçməsi kimi texniki məsələdir. Bundan başqa, hər bir insanda öz ölümünü qabaqcadan hiss eləmək duyğusu var: bilirsən ki, iş üçün ayrılan vaxtın azdır, buna görə də insan qəlbinin bütün tarixini bir iynənin gözünə yerləşdirməyə çalışırsan. Üstəlik, mənim üçün insan bütün hallarda öz-özlüyündə mövcud deyil, keçmişinin məhsuludur. Keçmiş faktiki olaraq nəsə "vardı" kimi fəaliyyət göstərmir, o, "var"a keçib. Hər kişinin, hər qadının hər anında keçmiş var. Buna görə də insan, əsərdə yaradılmış xarakter istənilən fəaliyyət məqamında onu məhz bu şəklə salan şeylərin hamısını özündə əks etdirir. Uzun cümlə bütün keçmişi, imkan daxilində isə həm də gələcəyi qəhrəmanın hansı bir addımısa atdığı yeganə anda cəmləşdirmək cəhdidir".

Bir dəqiqəyə min ilin qəziyyəsini yerləşdirməyə çalışan uzun, qat-qat cümlələr Heminqueyin yaradıcılığı üçün xarakterik olmasa da, iri, qollu-budaqlı roman qədər tutumlu dünya şöhrətli hekayəsində o, eynən bütün yazmadıqlarını bir sehirli abzasa sığdırmağı arzulayan qəhrəmanı kimi, puça çıxmış bütöv ömürdən qalan qəlpələri, qırıntıları balaca mətnin çuvalına doldurur. Folknerin bir cümlədə hədəflədiyi, qəhrəmanı Harri Smitin bir abzasda göstərməyi dilədiyi misilsiz ustalığı, ədəbi möcüzəni Heminquey qələminin qənaətcilliyi sayəsində bir hekayə çərçivəsinə sığışdırır.

***

Əsərin qəhrəmanı - biz onu tanıyandan xeyli qabaq yazıçı şöhrəti qazanmış Harri Smit səyahətə çıxdığı Afrikada ölüm ayağındadır. Cümlədəki "ayağında" sözünü hərfi mənada da qavramaq olar, çünki ölüm onu məhz ayağından tələyə salıb: "...İki həftə öncə o, başlarını dik tutaraq düz qabağa baxan, qulaqlarını şəkləyib qaçmağa hər an hazır dayanan, iri burun pərələri havadan iy çəkən və azacıq xışıltıya bəndmiş kimi dərhal kolluğa təpiləsi antilop sürüsünün şəklini çəkməkdən ötrü cəngəlliyə girdikləri vaxt tikanın cızıb qanatdığı dizinə yod sürtüb yandırmamışdı və antilop sürüsü ona fotoaparatın düyməsini şıqqıldatmağa imkan vermədən qaçıb dağılışmışdı" (tərcümə Mahir N. Qarayevindir). Bundan sonra onun ayağı qanqrena verib. İndi zərrə-zərrə ölən Harri arvadı (belə də demək olar) Ellenlə birgə onu yaxın hospitala çatdırası bir təyyarənin intizarındadır.

Buna bənzər situasiyayla biz Tolstoyun "İvan İliçin ölümü" povestində də rastlaşmışdıq. Hər iki əsərdə insan ölümün bir qarışlığındadır, əcəlin həniri nəinki obrazları, hətta oxucunu da vurur. Fərq burasındadır ki, Tolstoy puç olmuş ömrə, fani ömrün aqibəti, cəzasıtək Allahın göndərdiyi əcələ dini-idealist bucaq altında insana kəsilmiş zəruri hökm kimi baxır, Heminquey şıltaq qəhrəmanını balasının dizinə tikan batıran ana təbiətin övladıyla şit zarafatının təsadüfi qurbanı sayır. Tolstoy İvan İliçi ölüm körpüsündən adladıb haqq dərgahına göndərir, Heminqueyinsə belə bir qayğısı yoxdur, o öz qəhrəmanını haqqın mühakiməsinə verməkdən çox (zatən qəhrəman özü özünü yetərincə mühakimə eləyir) ona dinclik axtarır. Onun qəhrəmanı olsa-olsa Kilimancaronun zirvəsinə qalxıb orada əbədi qara bələnmək, fani dünyadan uzaqlaşmaq istəyər, yarasına buz basıb donuq cəsədini ana təbiətin qoynuna atmaq istəyər.

"Kilimancaro - 19 710 fut hündürlükdə yerləşən, əbədi qarla örtülü uca dağ zirvəsi, Afrikanın ən yüksək nöqtəsidir. Masai qəbiləsinin sakinləri onu "Tanrı evi" anlamını verən "Nqaye-Nqaya"nın qərb zirvəsi adlandırırlar. Zirvənin ən yüksək nöqtəsində soyuqdan donub qaxaca dönmüş bəbir cəsədi var. Nə idi bəbiri belə bir yüksəkliyə çəkib gətirən, burada nə lazım olmusdu ona - burasını heç kəs izah edə bilmir". Sitat gətirdiyim ensiklopedik məlumat hekayənin epiqrafıdır.

***

Əsərdə keçmişlə indi paralel təsvir olunur. Müəllif qəhrəmanın keçmiş həyatını, xatirələrini seçdirmək üçün onları kursivlə verir. Bir-birinə pərçimlənmiş mətnlər arasındakı fərq təhkiyə tərzində, üslubda da özünü göstərir. Bu paralellik hekayənin ümumən bədii-estetik məziyyətinə, məzmundan doğan etik-fəlsəfi xüsusiyyətinə çevrilir. Kilimancaronun zirvəsində əbədi sükuta dalmış bəbir çürümüş ətin qoxusunu alıb xəstənin yan-yörəsində dolaşan eybəcər səsli kaftara, qəhrəmanı yuxusunda o sükunət zirvəsinə qaldıran dəmir qanadlı quş (dostunun təyyarəsi) yaxınlıqdakı ağaca qonmuş leşyeyən quşlara, uzaqdan sərinlik saçan qarlı dağlar Harrinin qoynunda dustağa döndüyü rütubətli vadiyə, biryolluq itirdiyi sevimli qadın bir addımlığındakı sevmədiyi qadına qarşı qoyulur.

Ümumilikdə bu kolliziya ruhla bədənin toqquşmasıdır, Harri Smit aram-aram ölməkdən bezib, uzun sürən ölümündən qurtuluban birdəfəlik ölüb qurtarmaq, ruhunu qəfəsdən buraxıb azadlığa uçurmaq istəyir. Ancaq ölüm ondan tezliklə qopmaq fikrində deyil, əcəl onun canını misqal-misqal kamına çəkir, qiymə-qiymə doğrayıb çeynəyə-çeynəyə udur. Zövqü-səfa, kef kimi ağrı, əzab da həyat əlamətidir - səfasını çəkən cəfasına da dözməlidir. Həyat elə bir nemətdir ki, çoxluğu da, yoxluğu da adama qənim kəsilir: "Bir dəfə söhbət ondan düşmüşdü ki, guya Tanrı həzrətləri insana yalnız çəkə biləcəyi qədər yük göndərir və kimsə belə bir mülahizəni təsdiqləməyə çalışmışdı ki, guya bəlli bir anda ağrı insanı öldürür".

Ağrının, əzabın bir həddi var ki, insan ölüm qorxusunu unudur, əcəldən nicat (əslində həyat) umur. Həmin həddə çatanda ölüm qorxunc iblisdən xilaskar mələyə çevrilir. Bu da mahiyyətcə maddi-bioloji dünyanın absurd, məntiqsiz qanunlarla, paradokslarla idarə olunduğunu göstərir: insan ehtiraslarını bəsləyən həyat ona əzab, işgəncə verir, qorxuları, əzabları körükləyən ölümsə insana qurtuluş gətirir. Hər məxluq ana bətninə düşəndən ölüm onu izləyir, məxluq yoxa dönəndən sonra ölüm də yoxa çıxır. Halbuki məntiqlə bunun əksi olmalıydı, ölüm məxluq öləndən sonra başlamalıydı. Fəqət şeytanın məntiqi tərsinə oxunur: məxluq varkən, diriykən ölüm də onunla birgə var olur, məxluq olmayanda ölüm də olmur: "Sağ ayağında qanqrena başlayan vaxtdan ağrıları səngimişdi, ağrı ilə bərabər qorxu da çəkilib getmişdi və indi o yalnız nəhayətsiz yorğunluq, bir də sonun belə olacağına görə qərəz duyurdu. Yaxınlaşan şey onda zərrəcə maraq doğurmurdu. Bu, onu uzun illər ərzində izləmişdi, amma indi daha heç bir mənası yox idi. Qəribəsi də odur ki, hər şeyi, hər şeyi məhz yorğunluq bu cür yüngülləşdirir".

**davamı növbəti sayımızda**



***F.Uğurlu***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# ŞƏNBƏ ÜÇÜN NƏZM









***Elroman***

Bilmirsən, ürəyi gedir
Yerin göydən, göyün yerdən?
İndicə yer-göy qopacaq
Saçını hördüyün yerdən.

Quzum, mən gecə bilmirəm,
Sayıram, neçə, bilmirəm,
Hələ də keçə bilmirəm
İtlərin hürdüyü yerdən.

Yağışlıdı, qal, gedərsən,
Yanaqları al gedərsən...
Haqqını halal edərsən mənə
Öskürdüyüm yerdə.

Başım üstə - Allah
Və sən,
Nə Allah qocadı,
Nə sən.
Sən onu görə bilməzsən
O səni gördüyü yerdən.

Ay üzüm-üzüm üzdüyüm,
Qara gözünü süzdüyüm...
İndi nə üzlə gözdüyüm
Səni öldürdüyüm yerdə?

***

Bir qoca dedi ki, hələ diriydi
Dünən gömüləndə o qız torpağa.
Gəldiyi yerlərə qayıtdı hər şey -
Adamlar torpağa, kağız torpağa...

Göyərsə göylərdə bir ağ göyərçin,
Bu işə göylər də gülərdi, gərçi...
Sonra da darıxıb bu boz şəhərçün
Gəlib bulaşardı o toz-torpağa.

İstəsən, küləyə çevrilərəm
Və
Saçların tərəfə çevrilərəm,
Gəl.
Sən kimin olmusan min illər əvvəl?
Adını oxudum cam kasalardan...

Deyən olmadımı vaxtı dayandır?
Tanrısan, bilmirəm yerin hayandır...
Mağara ağzında cığara yandır,
Məni də bir dəfə yada sal orda...

Mağara?!
Görəsən, nəyin nəsidir?
Mağara - dağların əsnəməsidir.
Tərsinə asılmış quş qəfəsidir
Belə eşitmişəm yarasalardan...

Bir qoca dedi ki, hələ diriydi
Dünən gömüləndə o qız torpağa.
Sonra...
Gəldiyi yerlərə qayıtdı hər şey-
Adamlar torpağa, kağız torpağa.

***

Payız gələr, işıldaquş işıldar,
Külək əsər, ağacları boşaldar.
Ayağının altına bax,
Xəzəldi!
Mən demişdim, payız fəsli gözəldi.

Yol gedərik.
Bu yol hara, biz hara?
Bu aylarda ağaclarda qızaran
Mandarinlər bircə-bircə bozarar,
Yerə düşər, əyilsəmmi,
Bilmərəm.

Fikrim uçar bayağıdan bayağı,
Səmalarda qağayılarsayağı,
Sonra dəyməz ayağına ayağım,
Mənimsənmi, deyilsənmi,
Bilmərəm.

Götürəndə yerə düşən çörəyi
Sünbül kimi ovxalanar ürəyin.
Görərsən ki, sonra hər şey düzəldi;
Mən demişdim, payız fəsli gözəldi.

Sonra bütün sevgilərin gücündən
Öpmək üçün güc yığaram içimdə -

Dəmiryolu vağzalının səsinə
Titrəyərək ürəyimiz diksinər.
Qatarları tələsdirən həmin səs
Öpüşləri gecikdirər, əksinə.

Görərsən ki, yer ilə göy birləşər
İkisinin arasında yerləşən
İşım-işım işıldarkən işıqlar,
Üşüm-üşüm üşüyərkən uşaqlar,
Danə-danə dənə dönər başaqlar
Bir qırıq da külək əsdi,
Gözəldi!
Mən demişdim, payız fəsli gözəldi.

***

Mənə inanmırsan?
Gözümlə gördüm,
Ayna qarşısında balaca uşaq
Pomada sürtürdü
Dodaqlarına.

Nikah masasında oturan o qız
Stuldan sallanan ayaqlarıyla
Tapdaya bilmirdi
Yanındakının
Qırx altı ölçülü ayaqlarını.

Mənə inanmırsan?
Gözümlə gördüm,
Ayağı çatmırdı
Ayaqlarına...

Aeroport yolunda yavaş sürənlər
Nə qədər söyüldü!
Gözümlə gördüm.

Mənə inanmırsan?
Özüm də gördüm,
Ya ayaq ləngiyir, ya baş fırlanır.
Kimi ayrılıqdan, kimi təklikdən,
Kimi yüksəklikdən qorxduğu üçün
O yolda təkərlər yavaş fırlanır...

Mənə inanmırsan?
İnanıram de...

***

Sonra göydən süd tökülər-
Gəlin paltarında su.

Bilirsənmi, buludlar da yeriməyib
yetmiş il.
Bəlkə, biz də buludlara
İnad edib getmişik.
Sonra kimsə ağ-qaralı filmlərin
birində
Şəkillərdə yeriməyən buludları
yeridər.

Buxar səni aldatmasın, gözlərini
itilə!
Köynəklərin üzərində
Qəhvə süzər ütülər...

Sən qəfəsdə saxladıqca
Qarğış edər qumrular.
O qumrular
Saçlarında bircə-bircə yumrular...

Başlamazdan öncə düşün, sıfır
nədir?
Yumurta.
Sonra həmin yumurtadan bütün
rəqəmlər çıxar.

Göy üzündə növbə-növbə
hərlənəcək dövrələr
Kirpiyinin kölgəsini qısqanacaq
zöhrələr.
Tutulmaq nə?
Vurulacaq, bəlkə də. ay çöhrənə!
Sonra ayı incidəcək
Görünməmək qorxusu.

Sonra göydən süd tökülər -
Gəlin paltarında su...

***

Ağac olacaqsan önümdə, ağac,
Bir qız qoparacaq yarpaqlarını.

O gün mən yıxacam barmaqlarımı
Küləyin saçını yıxdığı yerə.

Hanı o əvvəlki yuxular, hanı?
O nəm kirpiyində yuxularammı?
Nə vaxtsa təzədən yıxılar hamı
Bir vaxtlar ayağa qalxdığı yerə.

Heç həmin yuxular belə darıxmaz...

Ay mənim hər dərdə, zülmə
dözənim,
Səbir elə, düzəlir, hər şey düzəlir...
Bir kürd nənnisiylə yatmış gözəli
Öpsəm dodağından...
Hələ darıxmaz.

Sən də qayıdasan keçmişə - dərdə,
Sənin də könlünə qəm düşə hərdən.
Bircə gün uzaqda qal bu şəhərdən,
Gör nələr darıxar, nələr darıxmaz...

Adam heç darıxmaz?
De ki, darıxar...
Adamın başında tükü darıxar.
Adam bir darıxar, iki darıxar,
Adam üçüncüdə ölər, darıxmaz...

***

Səni tanımamış ulduzlar - nöqtə,
Aypara - göydəki tək vergül idi.
Bütün səhvlərimin adı uşaqlıq,
Bütün çiçəklərin adı gül idi.

Səni tanımamış yalan - yalandı,
Bir gündə zəhərin dadına döndü.
Səni tanımamış salam - salamdı,
Bir gündə Allahın adına döndü.

Səni tanımamış ölmək - qorxulu,
Yaşamaq - ölməyin ikiqatıydı.
Səni tanımamış saçlar - ətirsiz,
Ətir - oksigenin plagiatıydı.

Səni tanımamış heykəl - adamdı,
Adam - heykəllərin ağır yuxusu.
Dünyada nə qədər adamda var ki
Səni tanımamış ölmək qorxusu?!

Səni tanımamış səmalar - şəhər,
Buludlar - səmaya cızılmış ölkə.
Elə doğmasan ki, səni görməmiş,
Səni tanımamış tanıdım, bəlkə.

# Rəqəmsal cəmiyyət...

## Rabitə və texnologiya işçilərinin bayramıdır



Gündəlik həyatımızın hər anında telefon danışığından tutmuş, internet üzərindən apardığımız bank əməliyyatlarına qədər görünməz bir sistem işləyir. Bu sistemin arxasında fəaliyyət göstərən şəxslər-rabitə və texnologiya işçiləri informasiya axınının təhlükəsiz, fasiləsiz və keyfiyyətli şəkildə çatdırılmasını təmin edirlər.

Texnologiya işçilərinin üzərinə düşən yük artmaqdadır. Onlar yalnız sistemləri quraşdırmaqla kifayətlənmirlər, kibertəhlükəsizlik, proqram yeniləmələri, şəbəkə optimallaşdırması, məlumatların qorunması və rəqəmsal transformasiyanın idarə edilməsi kimi mürəkkəb vəzifələri də yerinə yetirirlər. Dövlət strukturlarından tutmuş özəl şirkətlərə, dərslərini onlayn öyrənən məktəblilərdən videozənglərlə iş görüşməsi keçirən mütəxəssislərə qədər hamı onların yaratdığı imkanlardan faydalanır.

Azərbaycan rabitəsinin zəngin tarixi kökləri var. Hələ 1303-cü ildə Qazan xan Hülakülər dövlətini iqtisadi və siyasi böhrandan qurtarmaq üçün poçt sahəsində islahatlar həyata keçirib. 1501-ci ildə Şah İsmayıl Xətai poçt rabitəsinin dövlət səviyyəsində təşkilinin təməlini qoyub. 1881-ci il dekabrın 6-da isə “Nobel qardaşları cəmiyyəti” tərəfindən Azərbaycanda rəsmi olaraq ilk telefon xətti istismara verilib. Beləliklə, 19-cu əsrin sonları, 20-ci əsrin əvvəllərində Bakıda neft sənayesi ilə bərabər telefon rabitəsi də inkişaf edib, o dövr üçün geniş telefon şəbəkəsi yaradılıb.

Sovet hakimiyyəti illərində Azərbaycan rabitəsi o dövrün tələblərinə uyğun qurulub. 1959-cu ildə Azərbaycan SSR Nazirlər Soveti respublikanın ali məktəblərində yüksək ixtisaslı rabitəçi mütəxəssislər hazırlanması barədə qərar qəbul edib. 1965-ci ildə Azərbaycan Politexnik İnstitutunda “Telefon və teleqraf rabitəsi” ixtisası üzrə mühəndislərin ilk buraxılışı olub.

**Ölkəmizdə İKT infrastrukturunun yaranması**

Ölkəmizdə rabitənin inkişafı ötən əsrin 70-ci illərinə təsadüf edir. Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci mərhələsini əhatə edən həmin dövrdə rabitənin inkişafı üzrə bir sıra mühüm qərarlar qəbul edilib. Həmin illərdə poçt, teleqraf və teleradio proqramlarının yayımı inkişaf etdirilib. Bakıda Dəmir yolu yanı poçtamt binasının, Rabitə evi, onlarla rayon mərkəzində rabitə qovşaqlarının və respublika üzrə yüzlərlə poçt şöbəsi binasının inşası məhz həmin dövrə təsadüf edir.

Azərbaycan müstəqillik qazanandan sonra da Heydər Əliyev rabitə sahəsinə xüsusi diqqət göstərib. Onun diqqəti nəticəsində ölkə iqtisadiyyatında ilk xarici investisiyalar məhz telekommunikasiya sahəsinə qoyulub.

Azərbaycanda rabitənin inkişafı istiqamətində atılmış ən mühüm addımlardan biri Heydər Əliyevin 2003-cü il fevralın 17-də “Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə 2003-2012-ci illəri əhatə edən Milli Strategiyanın” təsdiq edilməsi haqqında sərəncamı olub. Ötən müddətdə respublikada informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsində reallaşdırılan siyasət məhz bu strategiyanın üzərində qurulub.

**Rabitə işçilərinin sayı 32 min nəfəri ötüb**

Sürətlə inkişaf edən yeni texnologiyaların bir-birini əvəzlədiyi müasir dövrdə isə bu tərəqqi Prezident İlham Əliyevin rəhbərliyi ilə daha geniş vüsət alıb. Rabitə sahəsi üçün böyük önəm kəsb edən 6 dekabr tarixi Prezidentin 2006-cı il 2 dekabr tarixli müvafiq sərəncamına uyğun olaraq, rabitə və informasiya texnologiyaları sahəsi işçilərinin peşə bayramı günü kimi qeyd olunur. Dekabrın 6-nın bu sahədə çalışanların peşə bayramı günü kimi təsis edilməsi göstərilən dövlət qayğısının daha bir təzahürü idi. Görülən işlərin nəticəsidir ki, Azərbaycan İKT-nin inkişaf göstəricilərinə görə inkişaf etməkdə olan ölkələrlə inkişaf etmiş ölkələr arasında qiymətləndirilir.

Ölkə başçısının rəqəmsal iqtisadiyyatın qurulmasına yönələn siyasəti Azərbaycanı bu sahədə rolunun genişləndiyi, modern telekommunikasiya infrastrukturunun qurulduğu bir ölkəyə çevirib. Bunun nəticəsidir ki, Azərbaycanda İnformasiya və rabitə sektorunda çalışan işçilərin sayı 32 min nəfəri ötüb. Azərbaycanda bu sahənin inkişafı ilə bağlı milli strategiyalar, strateji yol xəritələri, dövlət proqramları, qanunvericilik aktları qəbul olunub. Ölkəmizdə vətəndaşlar İKT vasitələri ilə, eləcə də yüksəksürətli internet, kompüter, mobil telefonlar və digər rabitə avadanlıqlarla təmin edilir.

Son 20 ildə informasiya və rabitə sahəsində 10 dəfədən çox artıma nail olunub, bütün sahələrdə müasir texnologiyaların tətbiqi sürətləndirilib.

**Nağdsız ödənişlərin sayı artıb**

Ölkəmizdə aparılan islahatlar nəticəsində əhalinin rəqəmsal bacarıqları da artırılıb. Bu istiqamətdə ölkənin bütün regionlarında təlimlər, təqaüd proqramları təşkil edilib. Həmçinin Azərbaycanda nağdsız ödənişlərin genişləndirilməsi üçün elektron hökumət ödəniş sistemi - “E-gov Pay” yaradılıb və istifadəyə verilib. Belə ki, Azərbaycanda nağdsız ödənişlərin məbləği artıb. Ölkədə internetdən istifadə və bilavasitə elektron ticarətin həcmi dəfələrlə yüksəlib. Həyata keçirilən nağdsız ödənişlərin 4107 milyon manatdan çoxu elektron ticarətin payına düşür.

Bundan başqa, 40-dan çox dövlət qurumunun 350-dən artıq xidməti “Elektron hökumət” portalında vətəndaşlara təqdim olunub. Elektron xidmətlərə artan tələbat fonunda e-imzanın istifadəsi təkmilləşdirilərək “elektron imza” tokenləri yaradılıb. Azərbaycanda rəqəmsal transformasiyanı sürətləndirmək və onlayn xidmətlərdən istifadəni təşviq etmək məqsədilə SİMA adı altında “bulud” əsaslı yeni nəsil rəqəmsal imza istifadəyə verilib.

**İnternet provayderlərinin sayı 150-ni ötüb**

Ölkə ərazisində fəaliyyət göstərən internet provayderlərinin sayı 150-ni ötüb. Əhalinin 88 faizi internet, eyni zamanda, genişzolaqlı internet istifadəçisidir. Ölkə əhalisinin mobil şəbəkə ilə əhatə faizi 100 faiz, 3G şəbəkəsi üzrə əhatə 99.8 faiz, 4G şəbəkəsi üzrə əhatə 94 faiz təşkil edir.

Hər 100 nəfərə düşən aktiv mobil genişzolaqlı internet abunəçilərinin sayı 80 faizdən çoxdur. Yüksəksürətli internet şəbəkəsinin əhatə dairəsinin genişləndirilməsi məqsədilə “Onlayn Azərbaycan” layihəsinə başlanılıb. Artıq ev təsərrüfatlarının 50 faizdən çoxunun yüksəksürətli internet xidmətlərinə çıxışı təmin edilib.

İşğaldan azad olunmuş ərazilərdə mobil infrastruktur, fiber-optik kabel şəbəkəsi, müasir standartlara cavab verən telekommunikasiya qovşaqları yaradılıb, televiziya və radio proqramlarının yerüstü yayımı həyata keçirilir. Bu istiqamətdə işlər davam etdirilir.

Bu gün hər bir rabitəçi ölkəmizdə yüksək texnologiyalar sahəsinin inkişafı üçün çalışır. Bu sahə üzrə fəaliyyət göstərən hər kəsə uğurlar diləyirik. Rabitə və texnologiyalar sahəsi işçilərini peşə bayramları münasibətilə təbrik edirik!

***Yeganə BAYRAMOVA***

# Səmalara açılan qapı...

## Mülki aviasiyanın gələcək perspektivləri

Müasir dünyanın nəbzi yalnız yerüstü yollarda deyil, göyün mavi dərinliklərində də döyünür. Qitələri birləşdirən, xalqları yaxınlaşdıran, iqtisadiyyatları canlandıran bu gücün adı mülki aviasiyadır. Bir zamanlar yalnız xəyal edilən uçuşlar bu gün həyatımızın ayrılmaz parçasına çevrilib.

### “Qanadlı əjdahalar”

18-ci əsrin sonları - 19-cu əsrin əvvəllərində rus, fransız, alman və Amerika mühəndisləri ilk uçan aparatların - “qanadlı əjdahalar” adlandırılan təyyarələrin müxtəlif modellərini hazırlayırdılar. Bununla da bəşəriyyətin tarixində təyyarə erası başladı. Dekabrın 7-si dünyada Beynəlxalq Mülki Aviasiya günü kimi qeyd olunur. Əlamətdar gün 6 dekabr 1996-cı ildə BMT Baş Assambleyası tərəfindən elan olunub.

Mülki Aviasiya Gününün bayram edilməsində məqsəd geniş ictimaiyyəti üzv dövlətlərin sosial və iqtisadi inkişafına mülki aviasiyanın töhfəsini artırmaq idi. Digər məqsəd BMT-nin xüsusi strukturu olan Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO) bəşəriyyətə xidmət edən yüksəksürətli qlobal nəqliyyat şəbəkəsinin yaradılması üzrə səylərin birləşdirilməsi sahəsində unikal rolu haqda məlumatlandırılmasından ibarətdir.



### Texnologiya və məsuliyyətin vəhdəti

Mülki aviasiya sahəsinin ən vacib sütunu təhlükəsizlikdir. Hər bir uçuş minlərlə prosesin, yüzlərlə mütəxəssisin koordinasiyalı əməkdaşlığının nəticəsidir. Pilotların hazırlığı, mühəndislərin diqqəti, dispetçerlərin dəqiqliyi, hava limanı xidmətlərinin koordinasiyası - bunların hər biri uçuşun təhlükəsizliyi üçün zəncirin vacib halqalarıdır.

### İCAO-nun vəzifələri müxtəlif aspektlidir...

Beynəlxalq Mülki Aviasiya Təşkilatı Assambleyası mülki aviasiyada beynəlxalq normaları müəyyən edir, təhlükəsizliyin və səmərəliliyin artırılması məqsədilə onun inkişafını əlaqələndirir. İCAO-nun vəzifələri sırasına təkcə bütün dünyada beynəlxalq mülki aviasiyanın təhlükəsizliyinin təmin olunması və qaydalı inkişafı deyil, həmçinin təşkilatın müxtəlif aspektləri və mülki aviasiya sahəsində bütün məsələlər, o cümlədən yükdaşımaları üzrə beynəlxalq əməkdaşlığın əlaqələndirilməsi daxildir. İCAO-nun qaydalarına uyğun olaraq, beynəlxalq hava məkanı uçuş informasiyası rayonlarına - naviqasiya vasitələrini və hava hərəkətinə nəzarət imkanlarını nəzərə almaqla sərhədləri müəyyən olunan hava məkanlarına bölünüb. İCAO-nun funksiyalarından biri də dünya aeroportlarına aeronaviqasiya və meteorologiya məlumatlarının, uçuş planlarının və s. çatdırılması üçün dördhərfli fərdi şifrlərin - identifikatorların verilməsidir. Hazırda bu təşkilat 192 üzv-dövləti birləşdirir.

### Texnoloji inqilab göydə də davam edir...

Bu gün dünyada aviasiya ən təhlükəsiz nəqliyyat növü hesab olunursa, bu, illərin texnoloji inkişafının göstəricisidir. Son illər dron texnologiyası, süni intellekt, rəqəmsal naviqasiya sistemləri mülki aviasiyanın yeni mərhələyə keçdiyini sübut edir. Artıq uçuş marşrutları daha dəqiq hesablanır, yanacaq sərfiyyatı optimallaşdırılır, təyyarə monitorinqi real vaxtda aparılır, sərnişin xidmətləri isə demək olar ki, tam rəqəmsallaşıb.

Gələcəkdə pilotsuz sərnişin təyyarələrinin uçuşlarına artıq xəyal kimi yox, real perspektiv kimi baxılır. Bu isə aviasiyanın yalnız bu günümüzü deyil, sabahımızı da formalaşdırdığını göstərir.

***Yeganə BAYRAMOVA***


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4826**
**Sifariş: 2476**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova